alman
əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ



# Azərbaycanda Gender Büdcələşməsinin Tətbiqi: Beynəlxalq Təcrübə və Tövsiyələr

*Müəllif:*

**Kənan Aslanlı** – fiskal siyasət üzrə ekspert

*Baş redaktor*

**Sədaqət Qəhrəmanova** — Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini

*Redaksiya heyəti*

**Elgün Səfərov** — Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin (CEDAW) sədr müavini, hüquq üzrə fəlsəfə doktoru

**Sevil Rəsulzadə** — Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin əməkdaşı

*Layihəyə məsul şəxs*

**Fidan Qasımova** — Cənubi Qafqazda Yerli İnkişaf üçün Yaxşı İdarəetmə Proqramı, Proqram müşaviri

# Mündəricat


06 Gender məfhumu və gender büdcələşməsi nədir?

09 Fərqli gender ehtiyacları

11 Gender büdcələşməsinin əsas məqsədləri və ilkin şərtləri

15 Gender büdcələşməsi fəaliyyəti və gender büdcələşməsi təşəbbüsləri

20 Gender büdcələşməsi üzrə analitik vasitələr

26 Büdcənin gender analizi

34 Gender büdcələşməsi üzrə beynəlxalq təcrübə

39 Ukrayna təcrübəsi

40 Gender büdcələşməsi üzrə PEFA təcrübəsi

44 Gender büdcələşməsi üzrə qanunvericilik, təlimatlar və gender auditi

47 Gender büdcəsi bəyanatı

49 Gender amilinin dövlət xidmətlərinin qiymətləndirilməsi prosesinə inteqrasiyası

52 Əsas büdcə sənədlərinə gender amilinin inteqrasiyası

56 Ortamüddətli xərclər çərçivəsi və gender faktoru

58 Azərbaycanın büdcə prosesi və gender faktoru

61 Gender büdcələşməsinin institusional aspekti: büdcə sistemini idarə edən təşkilatlar

63 Vətəndaş cəmiyyəti və yerli qurumlar ilə əməkdaşlıq

64 Tövsiyələr

72 İstinad edilmiş mənbələr

77 Qeydlər

# Gender məfhumu və gender büdcələşməsi nədir?

**Gender büdcəsi, büdcənin gender bərabərliyi hədəflərinə çatmaqda daha təsirli olması üçün büdcə prosesinin rutin hissəsi kimi analitik vasitələrdən istifadə edilməsidir.**

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.1-ci maddəsində "gender" məfhumuna "ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti" kimi tərif verilib[1]. "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasının 3-cü maddəsinin (c) bəndinə əsasən "gender dedikdə hər hansı bir cəmiyyətin cinsi mənsubiyyətinə müvafiq olaraq kişi və qadına verdiyi rollar, eləcə də qadın və kişilər üçün münasib olduğu düşünülən davranışlar, fəaliyyətlər və xüsusiyyətlər başa düşülür"[2]. BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunma-

[1] "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanunu. 10.10.2006. http://www.e-qanun.az/framework/12424
[2] Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası. İstanbul. 11.05.2011. https://rm.coe.int/ic-explanatory-ic-aze-web/16808e9a39

sı haqqında" Konvensiyası (CEDAW, 1979) gender bərabərliyinin, qızlar və qadınların sosial-iqtisadi mövqeyinin yaxşılaşmasının iqtisadi rifahı möhkəmləndirmək üçün bir vasitə və insan hüquqları məsələsi kimi əhəmiyyətini vurğulayır[3]. Qanunverivciliyə əsasən qadın və kişilərin hüquq bərabərliyini, bərabər imkanları və toplumda bərabər sosial vəziyyətini ifadə edən gender bərabərliyi perspektivinin dövlət siyasəti üzrə bütün səviyyələrdə və mərhələlərdə yer alması üçün dövlət siyasətinin hazırlanması prosesinin yenidən təşkili, təkmilləşdirilməsi, və qiymətləndirilməsi aparılır. Bu proses "kompleks gender yanaşması" (gender mainstreaming) olaraq beynəlxalq təcrübədə ifadə edilir. Gender amili ilə dövlət maliyyəsinin əlaqələndirilməsi zamanı 2 anlayış ortaya çıxır. Birincisi, "gender amilini özündə əks etdirən büdcə"dir (gender responsive budget) ki, burada söhbət cəmiyyətin sosial və gender baxımından quruluşunu, xüsusən də qadınların mənafelərini əks etdirən ehtiyac və maraqlara əsaslanan mərkəzi və ya yerli büdcədən gedir. İkincisi, "gender büdcələşməsi"dir (gender budgeting) ki, bu da büdcə prosesində kompleks gender yanaşmasının tətbiqini nəzərdə tutur[4].

Avropa Şurası gender büdcələşməsinə belə bir məşhur tərif verir: "büdcələrin gender əsaslı qiymətləndirilməsi, büdcə prosesinin bütün səviyyələrində gender perspektivinin daxil edilməsi, gender bərabərliyini təşviq etmək məqsədilə gəlir və xərclərin restrukturiziyası vasitəsilə büdcə prosesində gender amilinin inteqrasiyasının tətbiqi"[5]. Azərbaycan üzv olmasa da dünyada dövlət maliyyəsinin idarə olunması ilə bağlı yeni konsepsiyaların və yanaşmaların tədqiqinə önəmli töhfələr verən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) gender büdcələşməsi məfhumu üçün belə definisiya istifadə edir: "gender amillərini nəzərə alan dövlət siyasətini təşviq etmək üçün analitik alətlər vasitəsilə büdcə prosesinə gender yanaşmasının inteqrasiya edilməsi"6. Beynəlxalq Valyuta Fondu (IMF) gender büdcələşməsinin tərifini "gender bərabərliyi, qızların və qadınların inkişafını təşviq etmək üçün fiskal siyasət və dövlət maliyyə idarəetməsi alətlərindən isti-

[3] Convention on the Elimination of All Forms of Discrimination against Women (New York, 18.12.1979). https://www.ohchr.org/en/professionalinterest/pages/cedaw.aspx
[4] Гендерные аспекты бюджетирования на местном уровне. Исследование. Киев. 2012 http://library.fes.de/pdf-files/bueros/ukraine/09513.pdf
[5] Council of Europe. Final report of the Group of specialists on gender budgeting (EG-S-GB). Directorate General of Human Rights. Strasbourg. 2005. https://rm.coe.int/1680596143

fadə edən bir yanaşmadır" formasında müəyyən edir[7]. IMF-in yanaşmasına görə gender büdcələşməsinin iki aspekti var: dövlət siyasəti aspekti və inzibati aspekt. Dövlət siyasəti aspekti büdcə ayırmaları və fiskal siyasətin quruluşunu, inzibati aspekt isə xərclərin monitorinqi və qiymətləndirilməsi sistemlərini nəzərdə tutur.

Dövlət Xərcləri və Maliyyə Hesabatlığı (PEFA) proqramı çərçivəsində gender büdcələşməsi anlayışına "gender amillərini nəzərə alan büdcə, cinsə görə fərqləndirilən ehtiyacları nəzərə almaqla fiskal siyasətin kişi və qadınlara diferensial təsirlərini nəzərə alan dövlət maliyyə idarəetmə qurumlarını və proseslərini əhatə edir"[8]. BMT-nin sənədlərinə görə isə gender büdcələşməsi, gender əsaslı maliyyələşmənin mövcud boşluqlarını qiymətləndirmək, onları aradan qaldırmaq üçün tədbirlər müəyyənləşdirmək, gender bərabərliyini və ehtiyaclar nəzərə alınmaqla qadınların səlahiyyətlərini artırmaq üçün milli və yerli öhdəliklərin lazımi səviyyədə maliyyələşdirilməsini təmin etmək üçün mərkəzi və yerli büdcələri təhlil edən ictimai siyasət alətidir[9].

---

[6] Ronnie Downes, Lisa von Trapp, Scherie Nicol. Gender budgeting in OECD countries. 2017. https://www.oecd.org/gender/Gender-Budgeting-in-OECD-countries.pdf

[7] Janet G. Stotsky. Gender Budgeting: Fiscal Context and Current Outcomes. IMF Working Paper. 2016. https://www.imf.org/external/pubs/ft/wp/2016/wp16149.pdf

[8] PEFA. Supplementary Framework for Assessing Gender Responsive Public Financial Management. 2020. https://www.pefa.org/news/pefa-launches-supplementary-framework-assessing-gender-responsive-public-financial-management

[9] Gender-responsive planning and budgeting. UN Women Europe and Central Asia. https://eca.unwomen.org/en/where-we-are/turkey/national-planning-and-budgeting

# Fərqli gender ehtiyacları

Cəmiyyətdəki qadın və kişilərin, oğlan və qızların fərqli ehtiyacları və vəziyyətləri səbəbindən dövlətin mərkəzi və yerli büdcələrinin tətbiqi insanlar üzərində fərqli təsirlər göstərə bilər. Genderə amilinə həssas büdcə yanaşması qadınlara, kişilərə, oğlanlara və qızlara yönəlmiş maliyyə mənbələrinin real dəyərini və real təsirini obyektiv olaraq ehtiyaclar əsasında qiymətləndirməyə imkan verir. Gender amilinə həssas büdcə fiskal qərarların qəbulu zamanı gender ehtiyaclarının nəzərə alınmasını tələb edir. Qadın və kişilərin bir birindən fərqli sosial məsuliyyətləri və imkanları təbii olaraq fərqli ehtiyaclara və prioritetlərə səbəb olur. Bu fərqli ehtiyacları və prioritetləri lazımi səviyyədə həll edə bilməyən dövlət siyasətləri və mərkəzi büdcələr mövcud gender bərabərsizliyini daha da dərinləşdirə bilər[10]. Müxtəlif cinsi qrupların bir-birindən fərqlənən qısamüddətli praktik ehtiyacları (məsələn, fərqli təhlükəsizlik ehtiyacları və evdə qulluqla bağlı fərqli rollar) və uzunmüddətli strateji ehtiyacları (məsələn, ictimai iştirakçılıq və mülkiyyət ilə bağlı fərqli ehtiyaclar) var[11]. Bununla yanaşı, qadınların yaşayış məntəqələrinin su təminatı, təhsil və səhiyyə xidməti, ailəni təmin etmək üçün gəlir əldə etməyə imkan verən alternativ məşğulluq, mənzil və qida təminatı kimi sahələrdə spesifik ehtiyaclar vardır. Bütün bu kimi məsələlərin həlli qismən mərkəzi və yerli büdcələrdən ayrılan maliyyə vəsaitlərindən asılıdır.

Gender büdcələşməsi cəmiyyətdə və iqtisadiyyatda mövcud gender fərqlərinin bariz şəkildə görünməsini təmin etmək məqsədi daşıyır. Gender büdcələşməsi dövlət xidmətlərindən yararlanan benefisiarların cinsi bölgü ilə fərqləndirilmiş ehtiyaclarının ödənməsinin daha ətraflı təhlili ilə büdcə gəlirlərinin və xərclərinin təsirinin daha dərindən öyrənilməsinə səbəb olur. Gender büdcələşməsi, daha səmərəli iqtisadi idarəetməni və məlumatlı qərarları təşviq edən, cəmiyyətdəki rifaha uzun müddətli dövrdə

[10] Gender Responsive Budgeting in Practice: A Training Manual. United Nations Development Fund for Women (UNIFEM). 2006. https://www.unfpa.org/sites/default/files/pub-pdf/gender_manual_eng.pdf

[11] Women, Girls, Boys and Men: Different Needs – Equal Opportunities. Gender Handbook for Humanitarian Action. IASC Sub-Working Group on Gender and Humanitarian Action. 2006. https://interagencystandingcommittee.org/system/files/legacy_files/women_girls_boys_men_different_needs_equal_opportunities_iasc_gender_handbook_for_humanitarian_action_english_language_.pdf

töhfə verən bir vasitədir[12]. Büdcə qərarlarının gender ehtiyaclarının əvvəlcədən qiymətləndirilməsi ilə hazırlanan ehtiyaclara əsaslanan gender büdcəsi, gender bərabərsizliyinin ən çox olduğu məşğulluq və spesifik dövlət xidmətləri sahələrinə xüsusi vəsaitin ayrılmasını nəzərdə tutur. Büdcə prosesinin məlumatların toplanması və analizi kimi ilkin mərhələlərinə büdcə xərclərinin doğru bölüşdürülməsi üçün gender ehtiyaclarının qiymətləndirilməsi də daxil edilir.

Artıq qeyd edildiyi kimi insanların fərqli vəziyyətləri və cəmiyyətdəki müxtəlif rolları səbəbindən dövlət maliyyəsinin toplanması və xərclənməsi müxtəlif sosial qruplara fərqli təsir göstərir. Bunları nəzərə almamaq, büdcə gəlir və xərclərindən yalnız birbaşa təsirlənmiş fərdlər və qruplar üçün deyil, ümumiyyətlə cəmiyyət üçün də mənfi təsirlər göstərə bilər. Məsələn, bəzi ölkələrdə paytaxt ərazisindən kənarda qadınlardan daha çox kişi yaşayır və gender fərqi burada daha çox 20-40 yaş qrupundadır. Qadınların kənd və ya ucqar bölgələrdə yaşaması daha az cəlbedicidir və bu fakt paytaxt ərazisindən kənarda əhalinin artımına çox mənfi təsir göstərə bilər. Bu faktlar iş yerlərinin açılması, nəqliyyat və rabitə, təhsil, səhiyyə və ailələrə sosial xidmətlərlə bağlı qərarlar qəbul edilərkən kişilərin və qadınların fərqli vəziyyətinin hər zaman nəzərə alınmasını zəruri edir. Nəticə olaraq qeyd edək ki, büdcənin icrasına və orta müddətli xərc çərçivəsinə mərkəzi və yerli səviyyədə gender büdcələşməsinin inteqrasiyası mərkəzi və yerli büdcələrin gəlirlərinin və xərclərinin tarazlaşdırılmasına, dövlət xidmətlərinin insanların ehtiyaclarına yaxınlaşmasına və dövlət xidmətlərinin keyfiyyətini artırılmasına səbəb olur.

[12] Ministry of Finance and Economic Affairs of Iceland. Gender budgeting. 2020. https://www.government.is/topics/economic-affairs-and-public-finances/gender-budgeting/

# Gender büdcələşməsinin əsas məqsədləri və ilkin şərtləri

Avropa Şurasının sənədlərində gender büdcələşməsinin əsas məqsədləri gender bərabərliyi, şəffaflıq, iştirakçılıq, effektivlik və səmərəli idarəetmədir. Gender büdcələşməsinin vəzifələri cinsi kriteriya ilə bölünmüş əhali qruplarının (oğlanlar və qızlar, qadınlar və kişilər) dövlət resurslarına çıxışının artırılması, dövlət büdcəsinin gender perspektivi baxımından effektivliyinin artırılması, gender mövzusunda çalışan vətəndaş cəmiyyəti təşkilatlarının və qeyri-hökümət təşkilatlarının qərar qəbulu prosesindəki rolunun aktivləşdirilməsi, alternativ büdcələşmənin həyata keçirilməsidir. Həmçinin, Avropa Şurasının sənədlərində gender büdcələşməsinin önəmli ilkin şərtlərinin isə siyasi iradə, hesabatlılıq, yetərli insan resursları, yetərli maliyyə resursları, dövlət qurumları arasında koordinasiya, gender məlumatlarının əlçatanlığı olduğu qeyd edilir. İnkişaf etmiş ölkələrin təcrübəsi gender büdcələşməsinin tətbiqinin 3 əsas ilkin şərti və ya komponenti olduğunu göstərir: 1. güclü strateji və fiskal çərçivə; 2. effektiv tətbiqetmə vasitələri; 3. dəstəkləyici xarici mühit (hüquqi, siyasi, iqtisadi)[13].

## 1. Güclü strateji və fiskal çərçivə

Gender büdcələşməsi “vahid hökumət yanaşması”, siyasi öhdəlik, güclü liderlik, hökumət daxilində mövcud olan fərqli qurumların məsuliyyətlərinin aydınlığını tələb edir. Gender büdcələşməsi yanaşması “milli gender bərabərliyi strategiyası” və gender bərabərliyi hədəfləri mövcud olan ölkələrdə daha təsirli tətbiq olunur. Gender bərabərliyi məqsədləri və hədəfləri

[13] MOECD Gender Budgeting Framework. 2020. https://www.oecd.org/gov/budgeting/Gender-Budgeting-Highlights.pdf

sosial-iqtisadi inkişafını izləməyə imkan verən monitorinq indikatorları ilə əlaqələndirilir. Dövlətlərin mərkəzi və yerli büdcələri ölkələrin və bölgələrin inkişaf prioritetlərini əks etdirir. Gender büdcələşməsi prosesi iqtisadi inkişafın prioritetləşməsi prosesini daha məqsədli və nəticəli edir, bu istiqamətdə dövlət vəsaitlərinin daha səmərəli istifadəsini təşviq edir. Gender büdcələşməsi dövlət büdcəsinin və yerli büdcənin gəlir və xərc maddələrinə, dövlətin iqtisadi fəaliyyətlərinə və dövlət investisiya proqramlarına tətbiq edilə bilər. Gender büdcələşməsi gender bərabərliyini təşviq edən bir konsepsiya kimi ölkədəki iqtisadi siyasət və inkişaf strategiyası ilə əlaqəlidir. Gender büdcələşməsi, dövlət büdcəsinin və ya yerli büdcənin gender bərabərliyi hədəflərinə çatmaqda daha təsirli maliyyə aləti olması üçün büdcə prosesində müxtəlif gender amilinə həssas analitik vasitələrdən istifadə edilməsini tələb edir.

## 2. Gender büdcələşməsinin tətbiqi üçün mexanizmlər

» Gender büdcələşməsinin büdcə prosesinin müxtəlif mərhələlərində tətbiqi üçün istifadə edilən əsas mexanizmlər aşağıdakılardır:

» Dövlət və yerli büdcənin gəlir və xərclərinin icrasının cins kriteriyası ilə bölünmüş ayrı-ayrı sosial qruplara təsirinin qiymətləndirilməsi: cari maliyyə ilinin və növbəti büdcə ilinin büdcəsindən maliyyələşən tədbirlərin (icradan əvvəl və sonra) gender təsirinin təhlili.

» Büdcə təşkilatlarının büdcə vəsaitlərinin xərclənməsi və hədəflərə çatmaq üzrə performansını müəyyən edərkən gender amilinin nəzərə alınması: gender bərabərliyi göstəricilərinin və hədəflərinin performans əsaslı büdcə çərçivəsinin bir hissəsi kimi müəyyənləşdirilməsi.

- Gender büdcələşməsi bəyanatı: büdcə prosesi zamanı həyata keçirilən ardıcıl tədbirlərin gender bərabərliyi prioritetlərini dəstəkləmək üçün necə hazırlandığının bir xülasəsi.

- Gender büdcəsinin tətbiqinin izlənməsi: büdcədən maliyyələşən proqramların və fəaliyyətlərin gender bərabərliyi hədəflərini necə dəstəklədiyini izləmək, monitorinq etmək və bu zaman maliyyə axınlarını kəmiyyət ölçüləri ilə ifadə etmək.

- Qiymətləndirmə və performans auditində gender perspektivi: ayrı-ayrı sektorlar üzrə dövlət siyasətləri və büdcədən maliyyələşən proqramlarla əlaqəli gender bərabərliyi hədəflərinin necə həyata keçirildiyini müəyyənləşdirmək.

- Dövlət və yerli büdcə xərclərinin düzəliş məqsədli yenidən nəzərdən keçirilməsində gender perspektivi: zəruri hallarda xərclərin yenidən qiymətləndirilməsinin təmin edilməsi müxtəlif cinsi qrupların sosial ehtiyaclarının nəzərə alınması şərtilə gender bərabərliyi hədəflərinə müsbət təsir göstərə bilər.

Gender büdcələşməsi vasitələrinin tətbiqi özü özlüyündə bir məqsəd deyil. Onların tətbiqi yolu ilə toplanan məlumatların təhlili daha effektiv büdcə qərarlarını dəstəkləyə, hökumətlərə büdcə qərarlarının strateji prioritetlərlə uyğunluğunu təmin etməyə kömək edə bilər.

## 3. Dəstəkləyici fəaliyyət mühiti

Gender büdcələşməsi əlverişli iqtisadi, sosial və hüquqi mühit mövcud olduğu sistemlərdə daha təsirli olur. Vətəndaş cəmiyyəti ilə strukturlaşmış və institusionallaşmış əlaqələr qurmaq və gender büdcələşməsinə dair məs-

ləhət vermək üçün bir ekspert qrupu yaratmaqla vətəndaşlara müraciət etmək və onlarla məsləhətləşmək vacibdir. Gender amilinə həssas büdcənin parlament və ali audit qurumu (Azərbaycan örnəyində Hesablama Palatası) kimi hesabatlılıq institutları tərəfindən nəzarətə götürülməsi də eyni dərəcədə vacibdir. Gender büdcələşməsinin effektiv tətbiqi gender bərabərliyinin təmini istiqamətində aydın siyasi öhdəlik tələb edir. Gender büdcələşməsi prosesində maraqlı olan siyasi və inzibati liderlik gender bərabərliyinin planlaşdırmasını və büdcə proseslərinə inteqrasiya olunmasını, dövlət büdcəsinin gəlir və xərclərinin qadın və kişilərə bərabər şəkildə fayda verməsini təmin etmək üçün xüsusi əhəmiyyət kəsb edir. Gender amilinə həssas büdcənin reallaşması üçün siyasi iradə və siyasi liderliklə yanaşı digər əsas şərtlər bunlardır: dövlətin inzibati qurumlarının yüksək səviyyədə öhdəlik götürməsi; dövlət qulluqçularının təkmil texniki potensialı; vətəndaş cəmiyyətinin iştirakı; cinsi meyar üzrə çeşitlənmiş məlumatlar ("sex-disaggregated data").

# Gender büdcələşməsi fəaliyyəti və gender büdcələşməsi təşəbbüsləri

Gender büdcələşməsi bütün büdcə prosesini əhatə edən bir mexanizmdir. Büdcə prosesi gender bərabərliyini təşviq edən büdcə siyasətinin planlaşdırılması, büdcə siyasətini həyata keçirmək üçün adekvat maliyyənin ayrılması, büdcə və iqtisadi siyasətlərin gender amili nəzərə alınmaqla təyin olunduğu qaydada həyata keçirilməsini təmin etmək üçün maliyyə axınlarının izlənilməsi, büdcə siyasətinin və xərclərin effektivliyinin, o cümlədən onların gender amili üzrə qiymətləndirilən real təsirlərinin monitorinq və qiymətdirilməsini əhatə edir. Büdcə prosesinin fərqli mərhələlərində fərqli gender büdcələşməsi fəaliyyətləri həyata keçirilir.

## a) Büdcə icra olunmadan əvvəl ("ex ante") həyata keçirilən gender büdcələşməsi yanaşmaları

» Büdcə icra olunmadan əvvəl ("ex ante") gender təsirinin qiymətləndirilməsi: ayrı-ayrı büdcədən maliyyələşən tədbirlərin və layihələrin büdcəyə daxil edilməsindən əvvəl onların gender bərabərliyinə təsirlərinə görə qiymətləndirilməsi.

» Gender büdcəsinin ilkin təhlili: mövcud dövlət büdcəsi xərcləri və gəlirlərinin bölgüsünün gender bərabərliyinə necə töhfə verdiyini qiymətləndirmək üçün büdcə vəsaitləri ayrılmadan əvvəl vaxtaşırı aparılan bir analiz [14].

[14] OECD. Gender Budget Toolkit. https://www.oecd.org/gender/governance/toolkit/government/integration-in-budget-cycle/ex-ante-gender-budgeting/

- Gender ehtiyaclarının qiymətləndirilməsi: dövlət büdcəsi kontekstində hökumət fəaliyyətinin prioritetlərini müəyyənləşdirmək məqsədi ilə hökumətin sektoral siyasət və proqramlarının gender bərabərliyi ehtiyaclarını nə dərəcədə təmin etdiyinə dair maraqlı tərəflərin (steykholder) və vətəndaş cəmiyyəti nümayəndələrinin fikir və rəyləri daxil olmaqla keyfiyyət metodları (dərinləşdirilmiş müsahibələr, fokus qrup müzakirəsi və s.) ilə aparılan qiymətləndirmə.

## (b) Büdcənin icrasına paralel həyata eçirilən gender büdcələşməsi yanaşmaları

- Fəaliyyət performansı müəyyən edilərkən gender perspektivi: büdcə ilə əlaqəli performans hədəflərinin müəyyən bir nisbətinin gender siyasəti ilə əlaqəli olmasını şərtləndirən tələblər.

- Maliyyə resurslarının bölüşdürülməsində gender perspektivi: büdcə xərclərinin müəyyən bir nisbətinin gender siyasətlərinə yönəldilməsini şərtləndirən tələblər.

- Gender ilə əlaqəli büdcə əhatəlilik analizi: ayrı-ayrı gəlir və xərclərlə əlaqəli tədbirlərin cinsi meyar üzrə təhlili və büdcənin gender bərabərliyinin təşviq edilməsindəki ümumi təsirinin rəsmi qiymətləndirməsi.

## (c) Büdcə icra olunandan sonra (“ex post”) həyata keçirilən gender büdcələşməsi yanaşmaları

- Büdcə icra olunandan sonra (“ex ante”) gender təsirinin qiymətləndirilməsi: ayrı-ayrı büdcədən maliyyələşən tədbirlər və layihələr icra edildikdən sonra onların gender bərabərliyinə təsirlərinə görə qiymətləndirilməsi.

- » Büdcəyə gender nəzarəti: mərkəzi icra hakimiyyəti orqanlarına tabe olmayan səlahiyyətli orqan (məsələn, Hesablama Palatası) tərəfindən aparılan, keçən ilin büdcəsindəki tədbirlər nəticəsində gender bərabərliyinin effektiv şəkildə təşviq edildiyi və ya konkret nəticələrin əldə olunduğu ilə bağlı müstəqil və obyektiv təhlil.

- » Xərclərin icrasının hökumət tərəfindən nəzərdən keçirilməsində gender perspektivi: büdcə xərclərinin icrasının nəzərdən keçirilməsi və ya qiymətləndirilməsi kontekstində gender faktoru mütəmadi olaraq analizin müstəqil bir ölçüsü və ya istiqaməti kimi daxil edilir.

Gender büdcələşməsi təşəbbüsləri (gender budgeting initiative) büdcə maliyyələşməsi mexanizmlərinə kişilərin və qadınların ehtiyaclarını və maraqlarını nəzərə alan gender bərabərliyi yanaşmasının tətbiqini nəzərdə tutur[15].

[15] Council of Europe. Gender budgeting. Final report of the Group of specialists on gender budgeting (EG-S-GB). 2005. https://rm.coe.int/1680596143

## Cədvəl 1. Dünya təcrübəsində uğurlu gender büdcələşməsi təşəbbüslərinin əsas komponentləri

| | |
|---|---|
| **1. Ölkədə gender büdcəsi təşəbbüslərinin ortaya çıxması və inkişaf hədəfləri ilə əlaqəsi** | 1.1. Beynəlxalq təşkilatlar və texniki yardım agentlikləri tərəfindən dəstəklənməsi |
| | 1.2. Dayanıqlı inkişaf məqsədlərinə, milli inkişaf planına və ya gender bərabərliyi strategiyasına bağlılığı |
| **2. Fiskal siyasətin gender büdcələşməsində diqqət yetirilən komponentləri** | 2.1. Büdcə xərcləri: insan kapitalının inkişafı (təhsil və səhiyyə); fiziki infrastruktur (nəqliyyat, su, elektrik və s.); ədliyyə və təhlükəsizlik (qadınlara qarşı şiddət, hüquqi yardımla təminat); məşğulluq, sahibkarlıq və əmək haqqılar; büdcə xərcləri istiqamətində struktur islahatlar (subsidiyalar, transfertlər, təşviqlər və gəlirlərin yenidən bölgüsü). |
| | 2.2. Büdcə gəlirləri: fiziki şəxslərin gəlir vergisi başda olmaqla birbaşa vergilər və ƏDV başda olmaqla dolayı vergilər |
| **3. Büdcə prosesində gender büdcəsinin tətbiqini göstərən göstəricilər** | 3.1. Maliyyə Nazirliyinin fiskal hədəfləri barədə geniş bəyanatın açıqlanması |
| | 3.2. Büdcə sənədlərinin tərkib hissəsi kimi gender büdcəsi bəyanatı hazırlanması |
| | 3.3. Gender büdcəsi ilə bağlı dövlət qurumlarını məlumatlandıran təlimat və təqvim |
| | 3.4. Büdcə planlaşdırması və proqramlaşdırmasında gender büdcələşməsinin inteqrasiyası |
| | 3.5. Gender büdcələşməsi üzrə fəaliyyət hesabatı və audit hesabatının hazırlanması |
| | 3.6. Gender bərabərliyinin təmininə yönələn xərclər barədə ətarflı hesabat |
| **4. Hüquqi əsas** | 4.1. Gender büdcəsi ölkə konstitusiyasına daxil edilib |
| | 4.2. Gender büdcəsi büdcə və maliyyə qanunvericiliyinə daxil edilib |

| | |
|---|---|
| **5. Hökumətin rolu** | 5.1. Maliyyə Nazirliyi gender büdcələşməsi prosesinin aparıcı qurumudur |
| | 5.2. Digər nazirliklər prosesdə aktiv iştirak etməlidirlər |
| | 5.3. Yerli idarəetmə strukturları prosesdə aktiv iştirak etməlidirlər |
| **6. Vətəndaş cəmiyyətinin rolu** | 6.1. Vətəndaş cəmiyyətinin əhəmiyyətli proseslərdə iştirakının təşviqi |

# Gender büdcələşməsi üzrə analitik vasitələr

Mərkəzi səviyyədə dövlət büdcəsinin formalaşdırılması 3 səviyyədə qərarları əhatə edir: ümumi makroiqtisadi strategiya; xərclərin və gəlirlərin tərkibi; dövlət xidmətlərinin göstərilməsinin effektivliyi. Bu zaman Maliyyə Nazirliyi və digər hökumət qurumları büdcə kəsiri və profisiti, davamlı orta müddətli iqtisadi siyasət çərçivəsi, xərclər və vergilərin səviyyəsini müzakirə edir. Dövlət sektorunun ölkədəki bütün iqtisadi subyektlərə, yəni şirkətlərə və ailə təsərrüfatlarına adekvat və hərtərəfli xidmət növlərini təqdim edə bilməsi üçün siyasətlər formalaşdırılır. Gender amilini bu 3 qərar qəbuletmə səviyyəsinə inteqrasiya etmək üçün beynəlxalq praktikada aşağıda izah ediləcək bir sıra alətlər mövcuddur. Ölkənin mövcud hüquqi, siyasi və iqtisadi şəraitindən asılı olaraq bu alətlər ayrılıqda və ya birlikdə tətbiq edilə bilər. Gender büdcələşməsi dövlət xidmətlərinin səmərəliliyi və büdcə xərcləri ilə bağlı daha rahat tətbiq edilə bilər. Lakin vergitutma siyasəti və makroiqtisadi strategiya ilə bağlı da gender siyasəti alətləri mövcuddur. Gender büdcələşməsi strategiyası, gender büdcələşməsi bəyanatı və gender amilinə həssas olan orta müddətli iqtisadi siyasət üçün bütün bu vasitələr tətbiq edilə bilər. Dünyadakı təcrübəyə əsasən gender büdcələşməsi zamanı aşağıda sadalanan alətlər istifadə olunur:

**Alət 1:** "Gender amilinə həssas dövlət siyasətinin qiymətləndirməsi" ("gender-aware policy appraisal") büdcə hesabına maliyyələşdirilən siyasət və proqramların gender baxımından təhlilidir və bu siyasətlər ilə bunlarla əlaqəli maliyyə ayırmalarını cinsi bərabərsizliyi azaltma və ya artırma ehtimalına görə dəyərləndirir[16].

[16] Debbie Budlender, Diane Elson, Guy Hewitt, Tanni Mukhopadhyay. Gender Budgets Make Cents. Understanding gender responsive budgets. The Commonwealth Secretariat. 2002 https://www.internationalbudget.org/wp-content/uploads/Gender-Budgets-Make-Cents-Understanding-Gender-Responsive-Budgets.pdf

**Örnək:** "X" ölkəsinin hökumətinin torpaq islahatı proqramı torpaq sahiblərinin təzminatından tutmuş mikro maliyyələşdirməyə qədər bütün komponentlər üzrə xərclərdəki müvafiq artımlarla davam edir. Bununla birlikdə, qadınların torpağa və ondan istifadə üçün lazım olan maliyyə resurslarına əlçatanlığına qanunlarla maneə törədilir. Qadınların torpaq mülkiyyəti və müqavilə hüquqları ilə bağlı məhdudiyyətlər mövcuddur. Torpaqdan istifadə imkanı olan qadınlar zəif suvarma sistemi ilə daha kiçik sahələrə sahiblik edir və qadınların başçılıq etdiyi ailələr ümumiyyətlə əmək haqqı ala bilmirlər. Nəticə etibarilə, qadınlar torpaq islahatı prosesi və əlaqədar xərclərdən xeyli az faydalana biliblər. Kənd Təsərrüfatı Nazirliyi gender problemlərini özünün monitorinq və qiymətləndirmə sisteminə daxil etməyə başlayır, nazirliyin işçiləri üçün genderə həssaslıqla bağlı təhsil verir.

**Alət 2:** Benefisiarların qiymətləndirilməsi. Benefisiarların qiymətləndirilməsi zamanı dövlət xidmətlərindən həqiqi və ya potensial faydalananlardan, dövlət xərclərinin onların ehtiyaclarını nə qədər ödədiklərini qiymətləndirmələri istənilir. Bu metod rəy sorğuları, qrup müzakirələri və ya müsahibələr yolu ilə gerçəkləşə bilər. Suallar dövlət xərcləri üçün ümumi prioritetlərə və ya dövlət xidmətləri üzrə fəaliyyətin detallarına yönəldilir.

**Örnək:** "X" ölkəsində bir araşdırma mərkəzi həyata keçirdiyi bir layihə ilə müxtəlif qeyri-produktiv xərclərdə təklif olunan azalmalardan qənaəti qiymətləndirdi. Məşğulluq, təlim proqramları, gender əsaslı zorakılığa qarşı kampaniyalar, yaşlı qadınlar üçün xidmətlər daxil olmaqla qadınlara fayda gətirmək üçün bu qənaət olunmuş vəsaitlərdən istifadə yollarını araşdırdı.

**Alət 3:** "Gender qrupları üzrə bölünmüş dövlət xərcləri üzrə intensivlik analizi" ("gender-disaggregated public expenditure incidence analysis") müəyyən bir xidmətin göstərilməsi üçün vahid xərcləri ölçür, bu dəyəri hər bir qrupun ölçüsünə bərabər olan vahidlərin sayına vuraraq büdcə maliyyəsinin və

maliyyədəki dəyişikliklərin kişi və qadınlar arasında bölüşdürülməsini qiymətləndirir[17]. Cins üzrə bölünmüş dövlət xərclərinin intensivlik analizi dövlət xərclərinin cinsi bölgüsünün qiymətləndirilməsində faydalı vasitədir. Qadınlar və kişilər, qızlar və oğlanlar arasında dövlət xərclərinin faydalarının bölüşdürülməsi müqayisə edilərək büdcə xərclərinin gender baxımından inkluzivliyi ortaya çıxarılır.

**Örnək:** "X" ölkəsində qida rasionu və subsidiya proqramındakı dəyişikliklərin gender qrupları arasında paylanmasının analizi, qızlar və qadınların yoxsul ailələrdə artan qida defisitinin ağırlığını öz üzərinə götürdüyünü, məktəbəqədər və məktəb yaşlı qızlar arasında daha çox natamam qidalanma problemi olduğunu, aztəminatlı ailələrdəki analardan dünyaya gələn körpələrin doğumdan sonra çəkilərinin azalmasını ortaya çıxardı.

**Alət 4:** "Vaxtdan istifadəyə büdcənin təsirinin cinslər üzrə bölünmüş təhlili" ("gender-disaggregated analysis of the impact of the budget on time use") ev təsərrüfatlarının vaxtdan istifadə anketlərindən istifadə edərək büdcə ayırmaları ilə bunun ev təsərrüfatlarının üzvlərinin vaxtlarını necə keçirməsinə təsiri arasındakı əlaqənin hesablanmasıdır. Dövlətin maliyyə resurslarının bölüşdürülməsindəki dəyişikliklərin ev təsərrüfatlarında zamanın sərf edilməsinə təsirləri mövcuddur. Dövlət xərclərinin bəzi növlərindəki kəsintilər, qadınların itirilmiş dövlət xidmətlərinin əvəzini çıxmaq üçün ailələri və icmaları üçün ödənişsiz baxım xidmətlərinə yönəlmiş işlərə xərclədikləri vaxt miqdarını artıracaqdır. Büdcə xərclərinin ixtisarı kişilərin və qadınların ödənişsiz baxım xidməti göstərməyə sərf etdikləri vaxtı artıracaqdır.

**Örnək:** "X" ölkəsində adambaşına səhiyyə xərcləri azaldıqdan sonra insanlar müalicə və dərman almaq üçün daha uzun yol qət etməli və daha uzun müddət gözləməli idilər. Müsahibə olunan qadınlar, xəstə olan ailə üzvlərinə qulluq etmək üçün daha çox vaxt sərf etməli olduqlarını bildirdilər. Buraya

[17] K. Schneider. Manual for Training on Gender Responsive Budgeting. GTZ. 2006. https://www.ndi.org/sites/default/files/Manual%20for%20Training%20on%20Gender%20Responsive%20Budgeting.pdf

xəstəxanada onlara tibb bacısı kimi sərf etdikləri və yemək yeməyə kömək etdikləri vaxt da daxil idi.

**Alət 5:** "Genderdən xəbərdar olan orta müddətli iqtisadi siyasət çərçivəsi" ("gender-aware medium-term economic policy framework") maliyyə, kredit və makroiqtisadi siyasətlərə diqqət yetirərək, iqtisadi siyasətlərin qadınlara təsirini qiymətləndirmək üçün istifadə olunur. Dövlət büdcələrinin gender analizlərinin əsas məqsədlərindən biri gender dəyişkənlərini orta müddətli dövlət xərcləri planlaşdırmasında istifadə olunan proqnoz modellərinə daxil etməkdir. Bu, sosial dəyişənləri (məsələn, işçi qüvvəsi) və ya ödənişsiz sosial xidmətlər iqtisadiyyatını kimi yeni dəyişənləri daxil etməklə cinsə görə bölgü üzrə edilir.

**Örnək:** Bir sıra ölkələrdə Maliyyə Nazirlikləri və İqtisadiyyat Nazirlikləri 3 illik dövrü əhatə edən orta müddətli iqtisadi siyasət çərçivəsi və orta müddətli xərc şərçivəsi sənədlərində gender amili ilə bağlı göstəriciləri və ya əsaslandırmaları əks etdirir. Bu performans əsaslı və ya nəticə əsaslı büdcələşdirmənin tətbiqi üçün də hüquqi və institusional baza formalaşdıra bilər.

**Alət 6:** "Gender büdcəsi bəyannaməsi" gender bərabərliyinə yönəlmiş xərclərin payı, təhsil və ya səhiyyə kimi əsasən qadınlar tərəfindən göstərilən ictimai xidmət xərclərinin payı, dövlətə aid iş yerlərində gender balansı kimi fərqli göstəriciləri istifadə edərək dövlət büdcəsini nəzərdən keçirən, xərclərin gender bərabərliyinə təsirini ümumiləşdirən hökumət hesabatıdır. Hər hansı bir hökumət proqramını və büdcəni təhlil etmək və nəticələrini əsas göstəricilər üzrə ümumiləşdirmək üçün yuxarıda göstərilən vasitələrdən birini və ya bir neçəsini istifadə edərək gender amilinə həssas büdcə bəyanatı hazırlana və açıqlana bilər. Bunun üçün dövlət sektoru daxilində yüksək dərəcədə koordinasiya və gender bərabərliyi prinsipinə sadiq qalınması ilə əlaqədar olaraq hökumət tərəfindən hesabatlılıq tələb olunur.

**Örnək:** İnkişaf etmiş ölkələr gender amilinə duyarlı büdcə bəyanatını hazırlamaq üçün istifadə edilə biləcək göstəriciləri müəyyənləşdirib. Bu göstəricilər, dövlət maliyyə vəsaitlərinin ayrılmasını izləmək və bunları hökumətin öhdəlikləri və büdcə siyasətləri ilə əlaqələndirmək məqsədilə davamlı bir proses üçün başlanğıc mərhələsi kimi təklif edilmişdir. Bunlara daxildir:

» gender bərabərliyinə yönəlmiş proqramlara ayrılmış ümumi xərcləri payı;

» dövlət sektorunda müxtəlif idarəetmə səviyyələrində və fərqli xarakterli işlərdə qadın və kişilərin sayı üzrə dövlət məşğulluğunda gender balansı;

» dövlət xidmətlərində qadınların prioritet ehtiyaclarına ayrılan xərclərin payı;

» hər nazirlik daxilindəki gender vahidləri üzrə qadınlara ayrılan xərclərin payı;

» qadınların ehtiyac prioritetlərinə yönəlik gəlir transferləri üzrə xərclərin (məsələn, kasıb ailələrdə azyaşlı uşaqlara baxanlara aylıq ödənişlər) payı;

» biznesə dəstək üçün ayrılan subsidiyalar, təhsil xidməti və ya nazirliklər tərəfindən verilən kredit dəstəyində gender balansı;

» evlərin tikilməsinə və ya ictimai işlərə dair müqavilələr daxil olmaqla, tenderlərlə verilmiş dövlət sektoru sifarişlərində cinsiyyət tarazlığı;

» dövlət komissiyaları və digər qərarvermə orqanları və forumların üzvlü-

yündə gender balansı;

- dövlət təhsil proqramlarında gender balansı.

Gender büdcələşməsinin təsirini qiymətləndirmək üçün istifadə olunan alətlər və yanaşmalar isə bunlardır: gender ilə əlaqəli göstəricilərin hazırlanması və tətbiqi; gender bərabərliyi göstəricilərinə və meyarlarına istinad edərək dəyişikliklərin davamlı izlənməsi; gender büdcələşməsi üzrə tədbirlərin və gender bərabərliyi üzrə siyasətlərin təsiri barədə parlamentə mütəmadi hesabat vermək; vətəndaş cəmiyyəti qurumları və digər maraqlı tərəflərlə dialoq və geribildirimin qurulması; maraqlı tərəflərin və hədəf qruplarının genderlə əlaqəli siyasətlərin təsirini qavramaları üçün sorğular keçirmək.

Gender büdcələşməsinin effektiv tətbiqi üçün bəzi ümumi elementlər mövcud olmalıdır: büdcə indikatorlarının və fiskal siyasətlərin gender baxımından analizi; gender büdcəsinin cəmiyyətdəki ümumi gender bərabərliyi hədəfləri ilə əlaqələndirilməsi; dövlət və yerli büdcələrin yenidən tərtib edilməsi və büdcə siyasətlərində dəyişiklik; büdcə prosesinin mərhələlərinə gender perspektivini inteqrasiya etmək; büdcə fəaliyyətinin nəticələrinin monitorinq və qiymətləndirilməsi; büdcə prosesinin şəffaflığı; büdcə prosesində ictimai iştirakçılıq. Bu elementlərdən ilki olan büdcənin gender analizi anlayışına ətraflı nəzər yetirək.

# Büdcənin gender analizi

Büdcənin gender analizi qadınlar və kişilərin bir-biri ilə münasibətdə qarşılaşdıqları məhdudiyyətləri və rollarını, onların maddi resurslara çıxış və nəzarət imkanlarını araşdırır.

Gender analizi bütün büdcə prosesi ərzində (proqnozlaşdırma, planlaşdırma, qəbul, icra, audit) aparılır. Büdcənin gender analizi üçün ilk növbədə doğru sektor seçilməlidir (məsələn, təhsil, səhiyyə, sosial müdafiə). Daha sonrakı mərhələlərdə seçilən sektordakı ilkin sosial-iqtisadi şərtlərin və vəziyyətin qiymətləndirilməsi, təklif olunan dövlət xidmətlərinin qiymətləndirilməsi, dövlət xidmətlərinin istehlakı sahəsində gender analizi, dövlət xidmətlərinin birbaşa və dolayı təsirinin qiymətləndirilməsi, gəlir və məşğulluq sahəsində gender qiymətləndirməsi, gender bərabərliyi hədəflərinə çatmaq üçün fəaliyyət indikatorlarının hazırlanması, gender aspektlərini büdcəyə daxil etmək üçün tədbirlərin hazırlanması və icrası, nəhayət ən sonda müvafiq nəzarət tədbirləri həyata keçirilməlidir. Dövlət və yerli büdcəsindən maliyyələşən proqramların gender analizi üzrə fəaliyyət və indikator örnəkləri aşağıda verilmişdir.

## Cədvəl 2. Dövlət büdcəsindən maliyyələşən proqramların gender analizi üzrə fəaliyyət və indikator örnəkləri

| Fəaliyyət örnəkləri | İndikator örnəkləri |
|---|---|
| Dövlət proqramlarının icrası nəticəsində yaranan yeni müəssiələrdə qadın və kişilərin məşğulluq səviyyəsinin bir-birinə yaxınlaşdırılması. | (X) dövlət proqramı çərçivəsində (X) region üzrə məşğulluğu təmin edilənlər arasında qadınların payını 2025-ci ildə 40%-ə çatdırmaq. |
| Dövlət proqramlarının əhatə dairəsinə görə cinslərə görə ayrılmış məlumatlarən müntəzəm olaraq toplanması. | 2022-ci ildə dövlət proqramlarının icrası ilə bağlı illik hesabatların 50%-də cinsiyyətə görə ayrılmış məlumatlar mövcud olmalıdır. |
| Xüsusilə qadınların ictimai təhlükəsizliyi üçün küçələrin keyfiyyətli işıqlandırılması və təhlükəsizlik kameralarının quraşdırılması | Böyük şəhərlərin mərkəzi küçələrinin 2 il ərzində 100% işıqlandırılması və kameralarla təmin edilməsi. |
| Uzun iş saatları olan işlərdə çalışan kişilərin girişini təmin etmək üçün sağlamlıq mərkəzlərinin iş saatlarının dəyişdirilməsi | X bölgəsindəki sağlamlıq mərkəzlərinin 100%-i 2022-ci ilin iyul ayına qədər iş saatlarını 2 saat uzadır. |
| Qadınların, qızların, oğlanların və kişilərin dövlət xidmətlərinə çıxışını qiymətləndirmək üçün fokus qrup müzakirələri təşkil edilir. | 2022-ci ilin birinci rübündə 5 regionda fərqli yaş qruplarından olan qız və oğlanlarla 5 müzakirə qrupu toplantısı təşkil edilir. |
| Dövlət proqramları və ayrı-ayrı funksional xərclər üzrə gender təhlili hesabatlarının hazırlanması. | X bölgəsi üzrə təhsil xərclərinin gender təhlili hesabatı 2022-ci il ərzində hazırlanır və Maliyyə Nazirliyi, Təhsil Nazirliyi tərəfindən yayımlanır. |

Beynəlxalq təcrübədə geniç bir şıkildə istinad edilən gender büdcəsi analizinin formalaşmasına doğru atılan 5 addım bunlardır [18]:

**1-ci addım** – milli büdcə sisteminin hüquqi, iqtisadi və təşkilati əsaslarının genderə həssaslıq istiqamətdə təkmilləşdirilməsi;

**2-ci addım** – vəzifələrin formalaşdırılması: bərabər hüquqlar və bərabər imkanlar siyasətini təmin etmək üçün resursların cinsi bölgüyə uyğun bölünməsi;

**3-cü addım** – informasiya toplanması: beynəlxalq və milli qanunvericilik, büdcə layihələri və büdcə icrası hesabatları, statistik və sosioloji informasiyalar;

**4-cü addım** – büdcənin, xüsusən sosial xərclərin cari, ortamüddətli və uzunmüddətli perspektiv üzrə gender ekspertizası;

**5-ci addım** – maliyyələşmə mənbələri, büdcə ayırmalarının əsaslandırılması və büdcənin yeni tərtibatı haqqında əsaslandırılmış tövsiyyələrin formalaşdırılması.

Beynəlxalq təcrübədə büdcə xərclərinin gender təhlili üçün bu metodlardan istifadə də uyğun hesab edilir: klassik iqtisadi analiz; büdcə xərclərinin təsnifatlar üzrə təhlili; intitusional təhlil - resurslardan səmərəli istifadə imkanlarının artırılması; dövlət xidmətlərinin çatdırılma mexanizmlərinin təhlili; xidmətlərin keyfiyyətinin təhlili; steykholder və ya maraqlı tərəflərin analizi (imkanlar və çatışmazlıqlar nəzərə alınmaqla); dövlət xərclərinin əhatə dairəsinin təhlili (ev təsərrüfatlarının davranışlarından və büdcə xərclərinin spesifikliyindən asılı olaraq); kəmiyyət metodları, o cümlədən benefisiarların qiymətləndirilməsi və cinslər üzrə yoxsulluğun qiymətləndirilmə-

[18] İnqilab Əhmədov, Azər Mehtiyev, Murad Bağırzadə, Kənan Aslanlı. "Azərbaycanda gender büdcəsinin tətbiqi üçün iqtisadi, siyasi, sosial və institusional bazanın təhlili". PFMC. 2008
http://www.budget.az/upload/files/Gender_budget_-_final_versiont_-_az.pdf

si. Beynəlxalq praktikada daha geniş yayılmış metodlardan biri də dövlət siyasətinin gender ekspertizasıdır. Belə gender ekspertizası bu və ya digər sahədə və ya dövlət proqramında aşkar və ya gizli gender aspektlərinin ortaya çıxarılmasını, buna uyğun olaraq ayrılan maliyyə resursunun və həyata keçirilən siyasətin gender bərabərliyinə təsirinin qiymətləndirilməsini nəzərdə tutur.

Büdcənin gender analizi rəsmi dövlət statistikası, Maliyyə Nazirliyinin büdcə sorğuları, maliyyə hesabatları, büdcə proqramlarının iqtisadi əsaslandırma sənədləri, büdcə proqramlarının icrası barədə hesabatlar, normativ hüquqi aktlar və gender bərabərliyinə dair məlumatları ehtiva edən digər sənədlərdə yer alan cinslər üzrə çeşidlənmiş məlumatları istifadə edir. Dövlət büdcəsində gender analizi üzrə 2 praktik nümunəni nəzərdən keçirək.

**Cədvəl 3. Dövlət büdcəsində gender analizi üzrə 2 praktik nümunə[19]**

| Təhsil Nazirliyi | | | | |
|---|---|---|---|---|
| **Vəzifə** | **Gender aspektləri** | **Tədbirlər** | **Büdcə** | **Nəticə göstəriciləri və faydaları** |
| İbtidai təhsilin genişləndirilməsi | Qızların ibtidai təhsildə iştirakı oğlanlara nisbətən azdır | Qızlarını ibtidai məktəbə göndərən valideynlərə subsidiya vermək | Büdcə hər il bu subsidiyanı alacaq valideyn sayına görə hesablanır | İbtidai təhsildə oğlanlarla qızların nisbəti; qızlar üçün əlavə imkanlar |

[19] МВФ. Выработка бюджетов с учетом интересов женщин. 2007. https://www.imf.org/external/pubs/ft/fandd/rus/2007/06/pdf/stotsky.pdf

| Səhiyyə Nazirliyi | | | | |
|---|---|---|---|---|
| HİV/AİDS-ə yoluxma riskini azaltmaq | Qızlar mədəni səbəblərə görə oğlanlardan daha çox HİV və ya AİDS riski altındadır | Kişilər üçün AİDS-in qadınlar və qızlar ilə bağlı riskləri barədə məlumatlandırıcı təlim proqramları hazırlamaq | Büdcə bu təhsili verəcək səhiyyə işçilərinin təlim xərclərinin qiymətləndirilməsi üzrə hesablanır | Yoluxmuş qızların nisbətindəki dəyişikliklər;<br><br>AİDS müalicə xərclərinin azaldılması |

İnkişaf etmiş ölkələrin təcrübəsində mövcud gender vəziyyətinin öyrənilməsi üçün dövlət xərclərinin funksional sahələrinin gender analizi aparılır və gender büdcəsinə dair hesabat yayımlanır. Hökumətlər 5 illik maliyyə strategiyası və illik büdcələrini hazırlayarkən sosial və iqtisadi prioritetlərə dair qərarlar verməlidir. Gender büdcələşməsi, cinsi meyar ilə fərqləndirilmiş sosial qrupların vəziyyətini analiz edir, müvafiq məlumatları təhlil edərək dövlət siyasətlərini qiymətləndirir və bu siyasətlərin gender qruplarına təsirini nəzərə alır. Gender təhlili üçün ilkin şərt, cinslər üzrə bölünmüş statistik məlumatlar və insanların sosial-iqtisadi vəziyyətinə dair məlumatların mövcudluğudur. Cinsə görə ayrılmış məlumatlara çıxış imkanlarını yaxşılaşdırmaq üçün hökumətin daxilində işçi qrupu yaradılır. İdarələrarası işçi qrupunun əsas vəzifəsi gender kriteriyası ilə ayrılmış məlumatların icmalını hazırlamaq, məlumatları toplamaq və dövlət qurumları arasında istifadəsinin standartlaşmasının təmini olur.

Gender büdcələşməsi və dövlət xərclərinin və gəlirlərinin gender analizi dövlət xərclərindən hansı cinsi qrupların hansı səviyyədə faydalandığını izləmək və ya monitorinq etmək üçün bir alətdir. CEDAW prinsiplərinə uyğunluq baxımından dövlət büdcəsi xərclərinin analizi və monitorinqi zamanı aşağıdakı 4 meyara diqqət yetirilir: dövlət xərclərinin funksional təsnifat

maddələri arasında bölgüsündə gender bərabərliyi və qadınların cəmiyyətdəki mövqeyinin yaxşılaşması öncəlik olur; dövlət xərclərinin bölüşdürülməsində qadınlara və qızlara qarşı ayrı-seçkiliyin olub olmaması; gender bərabərliyinə dair öhdəliklərin həyata keçirilməsi üçün dövlət xərclərinin yetərlilik səviyyəsi; dövlət xərclərinin uzunmüddətli təsirində gender bərabərliyi[20]. Büdcədə "qadın tərəfdarı" xərclər ("pro-women" expenditures) birbaşa olaraq qadınların ehtiyaclarının ödənilməsinə və sosial-iqtisadi mövqelərinin yaxşılaşmasına yönəlib (məsələn, qadın məşğulluğu proqramları, çox uşaqlı dul qadınlara yönəlik mənzil təminatı proqramları).

Azərbaycanda büdcə xərcləri büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir. Həyata keçirilən funksiyalara müvafiq olaraq büdcə xərclərinin qruplaşdırılmasına xərclərin funksional təsnifatı deyilir. Xərclərin funksional təsnifatına daxil olan istiqamətlərdən təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, ümumi dövlət xidmətləri, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi xərcləri gender yanaşmasının və indikatorlarının tətbiqi üçün daha əlverişlidir.

Azərbaycanda və digər ölkələrdə fərqli xərcləmə və vergitutma modelləri qadınlar və kişilər üçün fərqli təsirlərə malikdir. Bu onların bazar iqtisadiyyatı şəraitində istehsala və ailələrinin qayğısına töhfə vermək qabiliyyətlərinə fərqli şəkildə təsir edir. Büdcənin gender analizi üzrə ekspert Rhonda Sharp, hər bir dövlət təşkilatının xərclərini 3 əsas kateqoriyaya daxil edir: xüsusi olaraq qadınlara yönəlmiş xərclər; dövlət sektorunda bərabər imkanlar təşəbbüslərinə yönələn xərclər; ümumi büdcə xərclərinin gender təsiri[21]. Bunu aşağıdakı sxematik şəkildə təqdim etmək mümkündür:

[20] Diane Elson. Budgeting for Women's Rights: Monitoring Government Budgets for Compliance with CEDAW. UNIFEM. 2006. https://www.internationalbudget.org/wp-content/uploads/Budgeting-for-Women%E2%80%99s-Rights-Monitoring-Government-Budgets-for-Compliance-with-CEDAW.pdf

[21] Sharp, R., Broomhill, R. (1990). Women and Government Budgets. Australian Journal of Social Issues, Vol. 25, No.1. https://onlinelibrary.wiley.com/doi/abs/10.1002/j.1839-4655.1990.tb00872.x

## Sxem 1. Dövlət təşkilatının xərclərinin 3 əsas kateqoriyası

| |
|---|
| **Cəmi Büdcə Xərcləri** |
| = |
| Dövlət təşkilatlarının birbaşa gender amilinə əsaslanan xərcləri |
| Qadın sağlamlığı proqramları; |
| Qızlar üçün xüsusi təhsil təşəbbüsləri; |
| Qadınlar üçün məşğulluq siyasəti təşəbbüsləri; |
| + |
| Dövlət idarələrinin işçilərinə bərabər iş imkanları yaradılmasına yönələn xərcləri |
| Qadın dövlət qulluqçuları üçün təlim; |
| Bərabər məşğulluq imkanları prinsipini əks etdirmən vəzifə təlimatlarının yazılması; |
| Uşaqlı qadın məmurlar üçün uşaq bağçası təminatı; |
| Analıq və ya atalıq məzuniyyəti; |
| + |
| Gender təsiri üzrə qiymətləndirilən dövlət idarələrinin ümumi büdcə xərcləri |
| Təhsil büdcəsinin (yuxarıdakı iki xərc növü çıxılmaqla) gender bərabərliyi hədəfləri |
| Xəstəxana xidmətlərindən istifadə edənlərin cinsi bölgüsü |
| Kənd təsərrüfatına dəstək xidmətlərini və subsidiyaları alanların cinsi bölgüsü |

Gender büdcələşməsi ilə bağlı analizlər bu günə qədər ilk növbədə xərc ayırmalarına yönəlib, buna görə də büdcə gəlirlərinin əhaliyə gender təsirlərini təhlil etmək ehtiyacı yaranmaqdadır. Dövlət büdcəsi gəlirlərinin gender bərabərliyi üzrə monitorinqi zamanı isə vergi qanunvericiliyində qadınlara və kişilərə yönəlik hər hansı bir ayri-seçkilyin olub olmaması, kişilərin və qadınların daha çox ödədikləri vergilər üzrə vergi dərəcələri dəyərləndirilir. Məsələn, beynəlxalq təcrübə əsasında qadınların ƏDV kimi geniş vergi bazalı dolayı vergilərdən, kişilərin isə fiziki şəxslərin gəlir vergisi kimi birbaşa vergilərdən daha çox təsirləndiyi fikri mövcuddur.

ƏDV və ya istehlak vergiləri kimi dolayı vergilər gəlirlərinin daha yüksək faizini istehlak mallarına xərcləyən və beləliklə gəlirlərinin daha çox hissəsini bu vergilərə ödəyən yoxsul insanlar üzərində daha çox təsir göstərir. Dolayı vergilər qadınlara daha çox təsir göstərir, çünki qadınlar yoxsullar arasında daha yüksək səviyyədə təmsil olunurlar və ev təsərrüfatlarının istehlak büdcələrinə daha yüksək töhfə verirlər. Fiziki şəxslərin gəlir vergisi kimi birbaşa vergilərdə, rəsmi işçi qüvvəsində daha çox təmsil olunma, daha yüksək vəzifələr və daha yüksək gəlirlər səbəbindən kişilərin üzərinə daha çox yük düşür.

# Gender büdcələşməsi üzrə beynəlxalq təcrübə

Gender büdcəsinin beynəlxalq təcrübədə vahid tətbiq modeli yoxdur. Beynəlxalq təcrübə göstərir ki, gender büdcələşməsinin tətbiqinə çox fərqli yanaşmalar var və fərqli ölkələrin gender büdcələşməsi təşəbbüslərində istifadə edilən ən vacib yanaşmalar bunlardır[22]:

[22] Gender budgeting. European Institute for Gender Equality. 2020
https://eige.europa.eu/gender-mainstreaming/methods-tools/gender-budgeting

- dövlət maliyyəsinin idarə olunması prosesinə gender perspektivinin inteqrasiyası;

- gender perspektivinin performansa və proqrama əsaslanan büdcəyə inteqrasiyası;

- büdcə proqramlarının gender tələblərinə uyğun kateqoriyalaşması;

- gender büdcələşməsi ilə "iştirakçı büdcə"nin və "rifah büdcəsi"nin əlaqələndirilməsi;

- gender bərabərliyini təşviq etmək üçün büdcə xərclərinin izlənməsi;

- gender amilinə həssas olan iqtisadi siyasət və büdcə qiymətləndirməsi, cins amili üzrə bölünmüş dövlət xərc və gəlirlərinin təhlili və genderə həssas benefisiar ehtiyaclarının qiymətlənməsi kimi standart gender büdcələşməsi vasitələrinin tətbiqi.

Bütün dünyada gender büdcələşməsi üzrə mütərəqqi nümunələrdən hesab edilən Avstriya nümunəsində gender büdcələşməsi Konstitusiyada nəzərdə tutulub və illik büdcənin bir hissəsini təşkil edir. Mərkəzi hökumət qurumlarından tələb olunur ki, xərclənən vəsait və gender bərabərliyi istiqamətində əldə olunan nəticələr arasındakı əlaqəni göstərsinlər. Bütün büdcə sənədlərində büdcə qurumlarının təqdim etməli olduğu 5 məqsəddən ən azı biri gender məqsədi olmalıdır[23]. Belçikada qanunvericilik nazirliklərdən gender bərabərliyi hədəflərini müəyyən etməyi və sonra bu hədəfləri büdcə proqramları ilə əlaqələndirməyi tələb edir. Belçika parlamentində büdcə müzakirələrində gender bərabərliyi tədbirlərinin də müzakirə edilməsi, bütün qanun layihələrinin qadın və kişilər üzərində potensial olaraq fərqli təsir baxımından qiymətləndirilməsi tələb edilir. İslandiyada gender

[23] Katrin Şnayder, Kənan Aslanlı. Azərbaycan: dövlət maliyyə idarəetməsi sistemində gender amillərinin nəzərə alınmasına dair icmal. Asiya İnkişaf Bankı. 2020.
https://www.adb.org/sites/default/files/project-documents/51355/51355-001-tacr-az_0.pdf

büdcələşməsi 2016-cı ildən "Dövlət Maliyyəsi Qanunu"nda göstərildiyi kimi dövlət səviyyəsində məcburidir. Gender büdcələşməsi və 5 illik planı üzrə icraya Maliyyə və İqtisadiyyat Nazirliyinin rəhbərliyi altında və bütün nazirliklərin iştirakı ilə Gender Büdcəsi üzrə Rəhbər Komitə nəzarət edir. Bu komitədəki nazirliklərin nümayəndələri hər bir nazirlik daxilində gender büdcəsinin tətbiqindən məsul olan qruplarla işləyirlər.

**Sxem 2. İslandiya təcrübəsində gender büdcələşməsi tsikli**




Mənbə: https://www.government.is/topics/economic-affairs-and-public-finances/gender-budgeting/

Koreya nümunəsində mövcud olan "Gender Təsirinin Təhlili və Qiymətləndirilməsi Qanunu"na əsasən, mərkəzi və yerli səviyyədəki hökumətlər, gender büdcəsi bəyannaməsi və genderə həssas xərcləmələr daxil olmaqla, gender büdcələşməsi üçün zəruri sənədlər hazırlamalıdır[24]. Koreyada İqtisadiyyat və Maliyyə Nazirliyi "gender büdcələşməsi layihələri"nin təsnifatına dair təlimatları açıqlayır və büdcə təşkilatlarından bu təlimatları bütün

[24] PEFA. Examples of Integrating Gender Considerations in Public Financial Management. Case study of Korea. 2020. https://www.pefa.org/sites/pefa/files/resources/downloads/200402 PEFA GRPFM-5 Case Study_Repulic of Korea.pdf

layihələr üçün istifadə etmələrini tələb edir. Gender büdcəsi layihələrinin hər bir departament və nazirliklər tərəfindən təklifi bu Nazirliyə təqdim olunur. Son koordinasiya İqtisadiyyat və Maliyyə Nazirliyi ilə Gender Bərabərliyi və Ailə Nazirliyi daxil olmaqla, müvafiq nazirliklərin təmsilçilərindən ibarət daimi komitədə aparılır. Koreya təcrübəsində gender büdcələşməsi təsnifatı birbaşa və dolayı layihələr üçün aşağıdakı meyarları müəyyən edir. **Gender büdcələşməsi üzrə birbaşa layihələr gender bərabərliyi hədəflərinə nail olmağa birbaşa töhfə verən layihələri əhatə edir:**

1. Gender Bərabərliyi Siyasətinin Əsas Planına (2018–22) daxil olan büdcə layihələri və onun icra planı;

2. Maliyyə Nazirliyi ilə Gender Bərabərliyi və Ailə Nazirliyi arasında razılaşma və əlaqəli şöbələrlə müzakirələr yolu ilə maliyyə ilinin əsas layihələri olaraq seçilən layihələr.

**Gender büdcələşməsi üzrə dolayı büdcə layihələri isə gender bərabərliyi məqsədlərinin əldə olunmasına dolayı yolla töhfə verən layihələrdir:**

1. Əvvəlki ilin gender təsirlərinin qiymətləndirilməsi nəticəsində təkmilləşdirilməyə ehtiyacı olan və davam etməli olan layihələr;

2. Benefisiarların və ya faydalananların cinsinə görə ayırd edilə biləcəyi layihələr;

3. Gender bərabərliyinə əhəmiyyətli təsir göstərən sosial rifah layihələri.

Koreya təcrübəsindəki birbaşa və dolayı gender büdcəsi layihələrini fərqləndirmək mexanizmi Azərbaycan üçün də faydalıdır. Belə ki, rəsmi sənədlərə əsasən "Azərbaycan dövlətin maliyyə resurslarının cinslər ara-

sında bərabər bölünməsinin təmin edilməsi məqsədilə gender büdcələşməsi sistemini yaradıb. Hökumət gender bərabərliyinin təmin edilməsi və qadınların irəli çəkilməsi sahəsində tədbirlər üçün dövlət büdcəsindən müəyyən məbləğlərdə ayırmalar edib”[25]. Gender büdcələşməsi üzrə maliyyələşməsi həyata keçirilən və ölkədəki gender bərabərliyinə birbaşa və dolayı təsir edən büdcədən maliyyələşən layihələrin seçilməsi proseduru üçün Koreya təcrübəsi istifadə edilə bilər.

Ruanda nümunəsində hökumətlər, gender büdcələşməsini proqramlar əsasında tərtib edilmiş büdcəyə (program-based budgeting) inteqrasiya edirlər. Ruanda Avstriyanın büdcə islahatları örnəyini təkrar edərək gender büdcələşməsini əhatə edən yeni bir büdcə qanunu qəbul etdi və gender büdcəsi öhdəliklərinin yerinə yetirilməsini təmin etmək səlahiyyətinə sahib olan Gender Monitorinq İdarəsini formalaşdırdı. Cənubi Afrika qadınların ailə başçısı olduğu yoxsul ailələrdə çox istifadə olunan bir yanacaq olan kerosin üçün əlavə dəyər vergisini azaltdı. Mərakeşin gender büdcəsi təşəbbüsündə büdcəyə dair açıqlamalara və gender büdcəsi bəyanatlarına qadın və qızların inkişafı ilə bağlı aydın ifadə edilmiş hədəflər daxil edilir. Mərakeş gender büdcələşdirməsi çərçivəsində qadın və qızların təhsil, səhiyyə, məhkəmə sistemi, infrastruktur və məşğulluq sahəsindəki ehtiyaclarını qiymətləndirdi. Qadın və qızların təhsil və səhiyyə xidmətlərinə, əmək bazarına bərabər çıxışlarını təmin etmək üçün maliyyə və digər siyasətlər hazırladı. Mərakeşin büdcə qanunu, büdcə prosesində performans hədəflərinin, konkret dövlət proqramlarının nəticələrinin və göstəricilərinin müəyyənləşdirilməsi zamanı gender bərabərliyi prinsipinin nəzərə alınmasını, hər ilin büdcə layihəsinin bir hissəsi kimi gender hesabatın daxil edilməsini tələb edir. Hindistan federal dövlət büdcəsi qadınların iqtisadi və sosial həyatda daha aktiv iştirakını dəstəkləmək üçün infrastruktur problemlərinin həllinə əlavə xərclərin ayrılmasını gender büdcələşməsi tədbiri kimi təqdim etmişdir.

[25] Azərbaycan Respublikasının BMT-nin “Qadınlara Münasibətdə Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Olunması Haqqında” Konvensiyası Üzrə 4-cü Dövri Hesabatı.

# Ukrayna təcrübəsi

Ukrayna nümunəsində gender yönümlü hədəflərin büdcənin proqramlaşdırılmasına inteqrasiyası üzrə Avstriya təcrübəsindən istifadə edilir. Ukraynada gender amilinə həssas büdcəni tətbiq etməkdə maraqlı olan əsas qurum Maliyyə Nazirliyidir. Dövlət maliyyəsinin idarə edilməsi prosesini tənzimləyən büdcə prosesi təlimatı, büdcə proqramları və büdcə məcəlləsində gender yanaşmanın tətbiq olunmasını təmin edir. Bu ölkənin büdcə prosesində gender amilinin inteqrasiyası kifayət qədər güclü qanunvericilik bazasından qaynaqlanır. Ukraynada gender amilini nəzərə almaq ehtiyacı 2019-cu il büdcə təlimatı (budget circular) sənədində açıq bir tələb kimi göstərilmişdir. Büdcə təlimatına gender amilinin inteqrasiyası üçün pilot sahə nazirlikləri büdcə proqramlarının gender təhlilini aparmışlar və Maliyyə Nazirliyinə ünvanlanan büdcə tələblərinə buna uyğun olaraq müvafiq dəyişikliklər edilmişdir. MN-nin 2019-2021-ci illərdə büdcə tələblərinin hazırlanmasına dair dövlət qurumlarına göndərdiyi məktubda onlardan xərclərin artırılmasının bir hissəsi olaraq kişilərə və qadınlara və ya gender bərabərliyinə təsirlərin əsaslandırılması və ya planlaşdırılmış nəticələrin göstərilməsi tələb olunurdu. Bununla birlikdə, məktub dövlət qurumlarından cinsi olaraq ayrılmış məlumatların büdcə vəsaiti tələblərində göstərilməsini tələb edirdi. Ukrayna Gənclər və İdman Nazirliyi, Enerji Nazirliyi kimi qurumlar gender perspektivini nəzərə alaraq Maliyyə Nazirliyə məlumat təqdim etdi. Ukraynada yerli səviyyədə isə 24 regional rəhbərlik və Kiyev şəhər rəhbərliyi davamlı olaraq büdcə proqramlarının icradan sonrakı gender təhlilini aparır .

[26] PEFA Assessment of Gender-Responsive Public Financial Management. Ukraine. Kyiv, 2021. https://openknowledge.worldbank.org/handle/10986/35698

# Gender büdcələşməsi üzrə PEFA təcrübəsi

Beynəlxalq miqyasda tətbiq edilən nüfuzlu Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı (PEFA) təşəbbüsünün gender tələblərinə cavab verən dövlət maliyyə idarəetməsi çərçivəsi, büdcə prosesinin və ya tsiklinin əsas mərhələlərinə uyğun olaraq müvafiq genderə həssas dövlət maliyyəsinin idarə edilməsi təcrübələrini vurğulayır.

**Cədvəl 4. Gender amilini nəzərə alan dövlət maliyyəsi idarəetməsinin qiymətləndirilməsi üçün əlavə çərçivə sənədi (PEFA tərəfindən hazırlanmış)**

| İndikator | Rəhbər suallar |
|---|---|
| 1. Büdcə layihəsi və büdcə siyasətinin gender təsir analizi | 1.1. Xərc təkliflərinin gender təsiri analizi<br><br>1.2. Gəlir təkliflərinin gender təklidfi |
| 2. Gender amillərini nəzərə alan dövlət investisiya idarəetməsi | 2.1. Gender amillərini nəzərə alan dövlət investisiya idarəetməsi |
| 3. Gender amillərini nəzərə alan büdcə təlimatı | 3.1. Gender amillərini nəzərə alan büdcə təlimatı |
| 4. Gender amillərini nəzərə alan büdcə təklifi sənədləri | 4.1. Gender amillərini nəzərə alan büdcə təklifi sənədləri |
| 5. Göstərilən xidmətlərə görə performans məlumatlarının cinslərə görə bölgüsü | 5.1. Planlaşdırılan xidmətlər üzrə performans məlumatlarının cinslərə görə bölgüsü<br><br>5.2. Artıq göstərilmiş xidmətlər üzrə performans məlumatlarının cinslərə görə bölgüsü |

| | |
|---|---|
| 6. Gender bərabərliyi üçün büdcə xərclərinin izlənməsi | 6.1. Gender bərabərliyi üçün büdcə xərclərinin izlənməsi |
| 7. Gender amilini nəzərə alan büdcə hesabatlılığı | 7.1. Gender amilini nəzərə alan büdcə hesabatlılığı |
| 8. Xidmət göstərilməsinin gender təsirinin qiymətləndirilməsi | 8.1. Xidmət göstərilməsinin gender təsirinin qiymətləndirilməsi |
| 9. Büdcənin gender təsirinin qanunvericilik baxımından incələnməsi | 9.1. Büdcənin gender təsirinin qanunvericilik baxımından incələnməsi<br>9.2. Audit hesabatlarının gender təsirinin qanunvericilik baxımından incələnməsi |

Gender amilini nəzərə alan dövlət maliyyəsi idarəetməsinin qiymətlənməsi üçün indikatorlar[27]:

**İndikator 1.** Büdcə siyasəti üzrə təkliflərin və büdcə layihələrinin gender təsirinin təhlili

Bu göstərici, hökumətin dövlət xərcləri və gəlir siyasətində təklif olunan dəyişikliklərin gender təsirlərinə dair qiymətləndirmələr hazırlamaq dərəcəsini dəyərləndirir.

**İndikator 2.** Gender amilinə həssas dövlət investisiyalarının idarə edilməsi

Bu göstərici, iqtisadi təhlilə əsaslanan güclü qiymətləndirmə metodlarının, əsas investisiya layihələri üçün texniki-iqtisadi əsaslandırmalara, cinslər üzrə təsirlərin təhlilini daxil etməsini qiymətləndirir. Fərqli kişi və qadın qruplarının dövlət investisiya layihələrindən fərqli qaydada faydalandıqları qəbul edilməlidir.

[27] The Public Expenditure and Financial Accountability (PEFA) supplementary framework for assessing gender responsive public financial management (GRPFM). 2020. https://www.pefa.org/sites/pefa/files/resources/downloads/WBG_PEFA_GRPFMB_BROCHURE_TRIFOLD_2_6_WEB.pdf

**İndikator 3.** Gender amilinə həssas olan büdcə prosesi sənədləri

Bu göstərici, hökumətin büdcə prosesi sənədlərinin fərqli cinslərin ehtiyaclarına cavab vermə dərəcəsini ölçür və büdcə siyasətinin kişilər və qadınlar üzərində təsirləri üçün əsaslandırma, nəticələr və cinslər üzrə bölünmüş məlumatları əhatə edir.

**İndikator 4.** Gender amilinə həssas olan büdcə təklifi və ya büdcə layihəsi sənədləri

Bu göstərici, hökumətin büdcə təklifi sənədlərinə gender prioritetləri və gender bərabərliyinin gücləndirilməsi istiqamətinə yönəlmiş büdcə tədbirləri barədə əlavə məlumat daxil etməsini qiymətləndirir.

**İndikator 5.** Dövlət xidmətlərinin çatdırılması üçün gender əsaslı fərqləndirilmiş performans məlumatları

Bu göstərici, təsdiqlənmiş büdcə təklifinin icrası sənədlərində, dəstək sənədlərində və xidmət təqdim etmə proqramlarda, performansa dair illik hesabatlarda gender məsələləri üzrə büdcə məlumatlarının daxil edilməsini ölçür.

**İndikator 6.** Büdcə xərclərinin gender bərabərliyinin təmini aspektindən monitorinqi

Bu göstərici, hökumətin büdcənin formalaşdırılması, büdcənin icrası və büdcə hesabatlarının təqdim edilməsi müddətləri ərzində gender bərabərliyinə töhfə verən xərclərini izləmək və ya monitorinq etmək qabiliyyətini ölçür.

**İndikator 7.** Genderə həssas büdcə hesabatı

Bu göstərici, hökumətin genderlə əlaqəli xərclər və büdcə siyasətinin gender bərabərliyinə təsiri barədə məlumatları özündə cəmləşdirən illik hesabatlar hazırlayıb yayımlamasını ölçür.

**İndikator 8.** Dövlət xidmətlərinin göstərilməsinin gender təsirlərinin qiymətləndirilməsi

Bu göstərici dövlət xidmətlərinin səmərəliliyinin müstəqil şəkildə qiymətləndirilməsinə gender qiymətləndirmə elementlərini daxil edildiyini ölçür.

**İndikator 9.** Büdcənin gender təsirlərinin qanunvericilik baxımından yoxlanması

Bu göstərici, qanunverici orqanın büdcə və audit yoxlamasının, hökumət siyasətlərinin kifayət qədər maliyyə vəsaitinin ayrılmasını təmin edərək, kişilər və qadınlara bərabər dərəcədə fayda verdiyini anlamaq üçün hökumətin fəaliyyətini nəzərdən keçirməsini ölçür.

# Gender büdcələşməsi üzrə qanunvericilik, təlimatlar və gender auditi

Gender büdcələşməsi təşviq etmək üçün qaydalar və prosedurlar ölkə konstitusiyasına, büdcə haqqında qanununa və ya dövlət maliyyəsi üzrə təlimatlara daxil edilə bilər . Büdcə tsikli ilə bağlı sənədlər ilə yanaşı, bu təlimatlar, xərcləmələri həyata keçirən müxtəlif nazirliklərə və qurumlara gender həssas büdcənin tətbiqində izləniləcək hüquqi və inzibati prosedurlar barədə tam məlumat verilməsini təmin etmək üçün vacibdir. Büdcə tsikli (təqvimi və ya prosesi) sənədi və ya təlimatı nazirliklərə və idarələrə qarşıdakı maliyyə ili üçün büdcə təqdimatlarının necə başa çatdırılması barədə təlimat verir və nazirliklərin büdcə tələblərini hazırlayarkən qəbul etməli olduqları makroiqtisadi və digər fiskal proqnozlar barədə məlumat verir. Təlimatda gender amilinin büdcə təqdimatlarında bildirilməsi tələbi açıq şəkildə göstərilə bilər və bu, büdcə müzakirələri zamanı vacib bir meyar hesab edilə bilər. Nazirliklər maliyyə tələblərinə genderlə əlaqəli göstəricilər daxil etməli, büdcə prosesi ərzində cinslərə görə bölünmüş məlumatları verməli və ya genderlə əlaqəli proqramlar və ya layihələr üçün xüsusi büdcə ayırmalarını tələb etməlidirlər. Bir öncəki bölümdə izah edilən PEFA gender amilinə həssas büdcə indikatorları qanunvericilik ilə təsbit edilən büdcə tsiklinin bütün mərhələləri üzrə tətbiq edilə bilər.



[28] IMF. Gender Budgeting in G7 Countries. 2017. https://www.imf.org/en/Publications/Policy-Papers/Issues/2017/05/12/pp041917gender-budgeting-in-g7-countries

## Sxem 3. Büdcə tsiklinin mərhələləri və gender amilinə həssas büdcənin tələbləri (PEFA indikatorlarının (GRPFM) büdcə tsiklinə inteqrasiyası)

GRPFM 1.1. Xərc siyasəti təkliflərinin gender təsirinin təhlili

GRPFM 1.2. Gəlir siyasəti təkliflərinin gender təsirinin təhlili

GRPFM 4.1. Gender amilinə cavab verən büdcə təklifi sənədləri

**01.** Büdcə proqnozu və büdcə layihəsinin hazırlanması

GRPFM 2.1. Gender amilinə həssas dövlət investisiya idarəetməsi

GRPFM 3.1. Genderə həssas büdcə prosesi sənədləri

GRPFM 9.1. Büdcənin genderə həssas qanunvericilik nəzarəti

**02.** Büdcənin qanunverici orqanda müzakirəsi və təsdiqi

**03.** Büdcənin icrası (gəlirlər və xərclər)

GRPFM 5.1. Xidmətin çatdırılması üçün cinsi bölgülü performans planları

GRPFM 6.1. Gender bərabərliyi üçün büdcə xərclərinin izlənməsi

GRPFM 8.1. Xidmətin göstərilməsinin gender təsirlərinin qiymətləndirilməsi

**04.** Kənar audit və büdcə hesabatı

GRPFM 7.1. Genderə həssas büdcə hesabatlılığı

GRPFM 9.2. Audit hesabatlarına genderə həssas qanunvericilik nəzarəti

Gender büdcələşməsi çərçivəsində büdcənin gender auditi hökumət gender amilinə həssas bir proqram (məsələn, anaların sağlamlığı) və ya gender bərabərsizliyini aradan qaldırmaq üçün nəzərdə tutulmuş bir proqram (məsələn, qadınlar üçün təhsil təqaüdü) təqdim edərkən daha uyğun olardı. Gender bərabərliyi məsələlərinin kənar audit tərəfindən araşdırılması, hökumətin gender bərabərliyini təşviq etmək üçün götürdüyü öhdəliklərlə əlaqəli mühüm tapıntı və tövsiyələrlə nəticələnə bilər. Nümunə olaraq yoxsul ailələrə və şəxslərə maddi yardım göstərmək üçün hazırlanmış bir dövlət proqramının auditi ola bilər. Məsələn, təhqiqat və ya audit istiqaməti, proqramın icrasının gender məqsədlərinə uyğunluğunun qiymətləndirilməsini, digər istiqamət isə qadın və kişilər arasında proqramın bərabər təmsilçiliyinə və fərqli cinslərin bərabər miqdarda sosial müavinət almasını müəyyənləşdirə bilər. Azərbaycanda Milli Məclis tərəfindən yaradılan, Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən kənar dövlət maliyyə nəzarətini həyata keçirən ali audit orqanı olan Hesablama Palatasının dövlət büdcəsinin "gender auditi" ilə məşğul ola bilməsi üçün qanunvericilikdə müvafiq müddəa nəzərdə tutulmur. Amma bu qurumun peşəkar əməkdaşları müəyyən təlimlər vasitəsilə genderə həssas büdcə ilə bağlı gərəkli bilik və bacarıqları əldə etdikdən sonra "gender auditi"ni apara bilərlər.

# Gender büdcəsi bəyanatı

Gender büdcəsi bəyanatı və ya bəyannaməsi, strateji hədəflərə çatmaq, xərcləmələrin gender bərabərliyinə təsirlərini ölçmək, kifayət qədər maliyyə vəsaitləri ayıraraq gender amilinə həssas siyasətləri həyata keçirmək üçün strateji vasitədir. Bu zaman büdcə layihəsi və digər büdcə sənədləri üçün makroiqtisadi hədəflər hazırlandıqdan sonra Maliyyə Nazirliyinə qarşıdakı maliyyə ili üçün təklif edilən büdcənin əsasını təşkil edəcək prinsiplərin bəyanatını hazırlamaq və qanunverici orqana və ictimaiyyətə çatdırmaq tapşırılır. Parlamentə (Milli Məclisə) təqdim olunan dövlət büdcəsi layihəsində "gender amilinə həssas büdcə bəyanatı" da daxil edilə bilər. Hökumət qadın və kişilərin büdcədən bərabər dərəcədə faydalanmasını və büdcənin cinsi ayrı-seçkiliklə mübarizəyə yönəlik icra olunub-olunmadığını qiymətləndirmək üçün genderə həssas xərcləmələri açıqlamalıdır. Büdcə xərcləri ilə bağlı məlumatlar büdcənin icra nəticələri, cinslər üzrə qruplara təsirlərin təhlili və gender bərabərliyinin qiymətləndirilməsini əhatə etməlidir. Azərbaycanda mövcud dövlət maliyyə idarəetməsi sistemini genderə həssas büdcə yanaşmasının elementləri üzrə qiymətləndirmə apardıqda gender büdcəsi bəyanatı önəmli komponent olaraq önə çıxır.

## Cədvəl 5. Genderə həssas büdcə indikatorları üzrə qiymətləndirmə cədvəli

| Genderə həssas büdcə yanaşmasının elementləri | Azərbaycanda gerçəkləşməsi |
|---|---|
| Dövlət maliyyəsi və büdcə qanunvericilik bazasında gender ilə bağlı müddəalar | X |
| Genderlə əlaqəli məsələlər üzrə siyasət qərarlarının əlaqələndirilməsi üçün xüsusi tənzimləmələr | X |
| Gender Amilinə Həssas Büdcə Bəyanatı | X |
| Gender təsirinin qiymətləndirilməsi | X |
| Büdcə prosesinin başlanması ilə bağlı sənədə və büdcə bəyanatlarına gender büdcəsi ilə bağlı təlimatların daxil edilməsi | X |
| Gender perspektivli performans göstəriciləri | X |
| Gender ilə əlaqəli performans göstəricilərinin dərc edilməsi | X |
| Fiskal məlumatların cinslərə görə bölünməsinin mövcudluğu | X |
| Fiskal məlumatların cinslərə görə bölünməsi | X |
| Gender perspektivinə görə büdcə təsnifatı | X |
| Büdcə icrası hesabatlarının və illik maliyyə hesabatlarının genderlə əlaqəli xərclər və gəlirlərə dair məlumatları əhatə etməsi | X |
| Parlament nəzarəti (xərclərdən əvvəl və sonra) | X |
| Büdcənin illik auditinin genderlə əlaqəli aspektləri əhatə etməsi | X |

Mənbə: https://www.imf.org/en/Publications/Policy-Papers/Issues/2017/05/12/pp-041917gender-budgeting-in-g7-countries

# Gender amilinin dövlət xidmətlərinin qiymətləndirilməsi prosesinə inteqrasiyası

Dövlət xərclərinin effektivliyi mümkün olan ən aşağı xərclə nəzərdə tutulan nəticələrin əldə edilməsi meyarı ilə qiymətləndirilir. Gender baxımından əsas sual bu effektiv nəticələrin daha çox hansı gender qrupu üçün olduğu və vəsaitin kimə xərclənməsidir. Nəticələrin kişilərlə yanaşı qadınların da ehtiyaclarını ödəməsi, kişilər və qadınların göstərilən xidmətlərin keyfiyyətindən eyni dərəcədə razı olması, xərclər və faydaların gender amili nəzərə alınmaqla hərtərəfli şəkildə ölçülməsi, bu nəticələrə gender bərabərsizliyinin azaldılması göstəricisinin daxil olması önəmli faktorlardır. Bu məsələləri həll etmək üçün bir sıra texnikalar mövcuddur: • ehtiyacların qiymətləndirilməsi;

» dövlət xidmətləri üzrə keyfiyyət göstəricilərinin təhlili;

» xərclər üzrə benefisiarların qiymətləndirilməsi;

» “görünməyən” məsrəflərin qiymətləndirilməsi;

» dövlət xidmətlərinin çatdırılmasında bərabər imkanların və faydaların qiymətləndirilməsi.

Ehtiyacların qiymətləndirilməsi dövlət xidmətlərinə olan tələbi müəyyən etməyə imkan verir. Bu metod ölkə daxilindəki ayrı-ayrı bölgələrdə mövcud olan demoqrafik xüsusiyyətlər, gəlir səviyyələri və xidmətlər barədə kəmiyyət məlumatları toplayaraq bunları müxtəlif növ yoxsulluq göstəriciləri ilə

birləşdirir. Dövlət xidmətlərinin istifadəçiləri baxımından məlumatlar çox vaxt cinslərə görə bölünmür və ehtiyaclar da cinslərə görə müəyyənləşdirilmir.

Dövlət xidmətlərinin keyfiyyət analizi bir sıra kəmiyyət göstəricilərinin (məktəblərə qəbul dərəcələri, xəstəxanalardakı yataq doluluq nisbəti, ev təsərrüfatlarının su və kanalizasiya sisteminə qoşulması səviyyəsi) tərtib edilməsi yolu ilə aparılır. Dövlət xidmətləri üçün keyfiyyət göstəricilərinin təhlili zamanı resursları (inputs) ölçmək, nəticələri (outputs) ölçməkdən daha asandır. Tədbirlərin və ya göstəricilərin hamısı əslində resursları əhatə edir, amma biz həqiqətən neçə tələbənin imtahan verdiyini, nə qədər xəstənin sağaldığını və neçə ailənin etibarlı təmiz içməli su ilə təmin olunduğunu bilməliyik. Göstəricilər xidmətlərin istifadəçiləri üçün ən vacib olan keyfiyyətləri ölçə bilməz, amma bu göstəricilərin cinslərə görə bölündüyünə əmin olmaq çox vacibdir.

Benefisiarların qiymətləndirilməsi həqiqi və potensial benefisiarların fikirlərini ortaya çıxarır, göstərilən xidmət ilə ehtiyacların uyğunluğunu araşdırır. Benefisiarların qiymətləndirilməsi ən optimal şəkildə keyfiyyətli müsahibə və ya fokus qrupu metodlarından istifadə etməklə aparılır. Bu qiymətləndirməni qadınların və dezavantajlı qrupların fikirlərini ifadə etməyə imkan verən və təşviq edəcək şəkildə aparmaq lazımdır. Xidmət keyfiyyətini artırmaq üçün tədbirlərin faydalananlar tərəfindən necə qiymətləndirilməsi vacibdir.

“Görünməz” məsrəflərin qiymətləndirilməsi zamanı gender baxımından xərcləri pulla yanaşı zaman baxımından da nəzərdən keçirmək vacibdir. Xidmətlərin göstərilməsinin təşkilində baş verən bir çox dəyişiklik səmərəliliyi artırır, əslində isə xərcləri dövlət sektorunun “görünən” büdcəsindən, ümumiyyətlə, ailələrdəki və icmalardakı qadınların “görünməyən” vaxt bü-

dcəsinə köçürür. Məsələn, tibbi xidmətlər xəstələri xəstəxanalardan daha sürətli bir şəkildə çıxartmaqla xərclərə qənaət etmək üçün yenidən təşkil edildikdə, bu sadəcə ödənişli xəstəxana işçilərindən ailələrə və icmalardakı maaşsız qadınlara qulluq xərclərini köçürür. Əgər bu belədirsə, xərclərə qənaət deyil, xərclərin bir subyektdən digərinə transferidir.

Dövlət xidmətlərinin göstərilməsində gender baxımından bərabər fürsətlərin yaratdığı faydaların qiymətləndirilməsi önəmlidir. Dövlət sektorunda məşğulluq siyasəti gender üzrə bərabər imkanlar və ailələrin xüsusiyyətinə uyğun məşğulluq praktikaları təklif edərək milli iqtisadiyyat daxilində gender münasibətlərinin dəyişdirilməsinə kömək edə bilər. Gender amilinə həssas xərc və fayda hesablaması ("cost-benefit analysis") vasitəsilə bu cür siyasətlərin əmək bazarlarında cinsi ayrıseçkilik dərəcəsi azalır və qadınların insan resurslarının inkişafına investisiya qoymaq qabiliyyəti artır.

Dövlət sektorunun satınalma siyasətləri gender büdcələşməsi zamanı diqqət yetirilməsi lazım olan məsələlərdən biridir. Bəzi ölkələrdə satınalma siyasətləri gender bərabərliyinə yönəlmiş bərabər imkanlar siyasətləri ilə əlaqələndirilir. Tender prosesinin sadələşdirilməsi, tender məlumatlarına daha asan giriş və böyük müqavilələrin kiçik və orta müəssisələr arasında bölüşdürülməsi gender bərabərliyi baxımından önəmlidir. Gender bərabərsizliyini azaltmaq üçün qadınlara məxsus müəssisələrin lehinə "pozitiv diskriminasiyalı" kvota, qısa müddətli "qiymət üstünlükləri" və digər sistemlərin istifadəsinə baxıla bilər.

# Əsas büdcə sənədlərinə gender amilinin inteqrasiyası

Qlobal miqyasda büdcə məsələlərini əhatə edən əsas tədqiqat aləti olan Açıq Büdcə İndeksi (Open Budget Index) və Açıq Büdcə Sorğusu (Open Budget Survey) əsas büdcə sənədlərinin əlçatanlığını ölçür. Burada hökumətlərin hazırlayıb ictimaiyyətə açıqlamalı olduğu 8 əsas büdcə sənədi vurğulanır: büdcəöncəsi bəyanat, hökumətin büdcə layihəsi, təsdiqlənmiş büdcə, vətəndaş büdcəsi, aylıq və ya rüblük hesabatlar, yarımillik hesabat, illik yekun hesabat, audit hesabatı[29].



[29] Open Budget Survey. IBP. 2020. https://www.internationalbudget.org/sites/default/files/country-surveys-pdfs/2019/open-budget-survey-azerbaijan-2019-en.pdf

## Cədvəl 3. Büdcə sənədləri və gender amili

| Sənədin adı və təsviri | İctimai açıqlıq | Gender amili və ya göstəricisi |
|---|---|---|
| Büdcəöncəsi bəyanat (pre-budget statement) – parlamentə təqdim edilən büdcə layihəsinin əsas parametrləri barədə, habelə hökumətin iqtisadi siyasəti ilə büdcə siyasətinin əlaqələndirilməsi barədə məlumatlar öz əksini tapır | Açıqlanır | “Azərbaycan Respublikasının 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama”[30] sənədinin orta müddətli dövr üçün büdcə göstəriciləri hissəsinə büdcə xərcləri sayəsində göstərilən dövlət xidmətlərinin benefisiarlarının cinslər üzrə bölgüsü verilə bilər. |
| Hökumətin büdcə layihəsi (executive’s budget proposal) – hökumətin vergilər və digər mənbələr hesabına gəlirləri artırmaq, habelə prioritet sahələrdə xərcləmələr aparmaq planlarını təqdim edir. | Açıqlanır | Nazirlər Kabinetinə təqdim olunan 2021-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinə gender göstəriciləri daxil edilə bilər. Bu göstəricilər xərcləmələrin benefisiarlarının cinsi bölgüsü və ya vergi ödəyicilərinin cinsi bölgüsü ola bilər. |
| Təsdiqlənmiş büdcə (enacted budget) – parlamentdə təsdiqlənən və hökumətə gəlirləri artırmaq, xərcləmələr etmək və borc götürmək səlahiyyəti verən hüquqi sənəd. | Açıqlanır | Adətən dekabr ayında Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanaraq təsdiqlənəcək olan “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Qanuna və bu qanunun tətbiqi ilə bağlı Fərmana gəlirlər və xərclər ilə bağlı gender göstəriciləri daxil edilə bilər. |
| Vətəndaş büdcəsi (citizens budget) – büdcə gəlirləri və xərcləri barədə geniş ictimaiyyətə anlaşılan məlumat verən qeyri-texniki sənəd. | Açıqlanır | “Azərbaycan Respublikasının 2020-ci il (və ya 2021-ci il) Dövlət və İcmal Büdcələri üzrə Vətəndaşın Büdcə Bələdçisi”[31] sənədinə dövlət büdcəsi ilə bağlı gender göstəriciləri daxil edilə bilər. |

[30] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/5f522c3912a48.pdf
[31] http://www.maliyye.gov.az/news/5409/vetendasin-budce-beledcisi-kitabi-maliyye-nazirliyinin-resmi-internet-sehifesinde-yerlesdirilib

| | | |
|---|---|---|
| Aylıq və ya rüblük hesabatlar (in-year reports) – aylıq və ya rüblük dövrilikdə faktiki gəlirlər, xərclər və borclanma üzrə dəyişiklikləri görməyə və proqnozla real rəqəmləri müqayisə etməyə imkan verən büdcə icrası hesabatı. | Açıqlanır | Büdcənin gəlir və xərc hissəsinin yerinə yetirilməsinin təhlili ilə bağlı Maliyyə Nazirliyinin açıqladığı aylıq və rüblük hesabatlara xüsusilə təhsil, səhiyyə və sosial müdafiə xərcləri üzrə benefisiarların gender bölgüsü və ya birbaşa gender bərabərliyinə yönəldilmiş proqramların icrası ilə bağlı məlumatlar yer ala bilər[32]. |
| Yarımillik hesabat (mid-year review) - büdcə ilinin yarısına görə büdcənin icrasının və büdcə siyasətinə təsir edən iqtisadi fərziyyələrin təhlili sənədi. | Açıqlanır | Büdcə ilinin ilk yarısına görə büdcənin icrasının və büdcə siyasətinə təsir edən iqtisadi fərziyyələrin təhlili sənədi Azərbaycanda açıqlanmır. |
| İllik yekun hesabat (year-end report) - təsdiqlənmiş büdcə ilə müqayisədə büdcənin faktiki illik icrasını təqdim edən sənəd. | Açıqlanır | Dövlət büdcəsinin icrası barədə illik hesabatların mətninə büdcə xərcləmələrinin benefisiarlarının cinsi bölgüsü, vergi ödəyicilərinin cinsi bölgüsü və müfaviq izahatlar əlavə oluna bilər. |
| Audit hesabatı (audit report) – büdcənin gəlir və xərclərinin icrasının müstəqil kənar nəzarət orqanı və ya ali audit qurumu tərəfindən yoxlanılmasının nəticələrini özündə əks etdirən hesabat. | Açıqlanır | Dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəylərinə gender auditi nəticələri və gender göstəriciləri daxil edilə bilər[33]. |

[32] http://www.maliyye.gov.az/static/15/budcenin-gelir-ve-xerc-hissesinin-yerine-yetirilmesinin-tehlili
[33] Hesablama Palatasının rəyləri. 2020. http://sai.gov.az/1/rey/75/

“Vətəndaşın büdcə bələdçisi” dövlət və icmal büdcələrin əsas parametrləri və istiqamətləri, büdcə layihəsinin hazırlanması haqqında məlumat, büdcə gəlirinin formalaşması mənbələri və xərclərin istiqamətləri haqqında əsas məlumatlar əks olunur. “Vətəndaşın büdcə bələdçisi” vətəndaşların büdcə ilə bağlı məlumatlı olmasına yönəlmişdir. Buna görə də bu sənəddə dövlət büdcəsinin gəlir və xərcləri, habelə büdcə prosesinin müxtəlif mərhələlərində gender amilinin inteqrasiyası mütləqdir.

Ənənəvi büdcə prosesi ilə yanaşı, indi Azərbaycanda büdcəyə ortamüddətli maliyyə aləti kimi yanaşmaqdan ortaya çıxan yeni bir büdcə prosesi və büdcə sənədləri də formalaşmaqdadır. Maliyyə Nazirliyi Azərbaycanda ortamüddətli xərclər çərçivəsinin hazırlanması məqsədilə büdcə xərclərinin funksional təsnifatının “Təhsil”, “Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” pilot bölmələri üzrə büdcənin tərtibinə başlamışdır. Maliyyə Nazirliyi ortamüddətli xərclər çərçivəsinin hazırlanması üçün büdcə təşkilatlarına təlimatlar göndərir. Burada büdcə təşkilatlarının ortamüddətli dövr üçün baza proqnozları, yeni siyasət təşəbbüsləri üzrə sifarişlərin və proqramlar üzrə fəaliyyət planlarının hazırlanması əks olunub. Maliyyə Nazirliyinin 2020-ci il 31 yanvar tarixli “Büdcə təşkilatlarının ortamüddətli dövr üçün proqram (tədbir) üzrə fəaliyyət planının hazırlanmasına dair” Təlimatına əsasən büdcə indikatoru “məqsədli proqram və tədbirlərə sərf edilən resursların qənaətlə və səmərəli istifadə olunub olunmadığını, onların məhsuldarlığını, təşkilatın strateji hədəfə və performans hədəfinə nə qədər çatdığını ölçməyə imkan verən qiymətləndirmə meyarlarıdır”. Performans hədəfi isə “növbəti il üçün məqsədli proqram və tədbirin icrasından gözlənilən birbaşa nəticədir”[34]. Bütün bu sənədlərə bu və ya digər səviyyədə gender amili və genderə həssas indikator və ya izahat əlavə edilə bilər.

[34] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5e4b94a192d96.pdf

# Ortamüddətli xərclər çərçivəsi və gender faktoru

Ortamüddətli xərclər çərçivəsinin hazırlanması təqviminin bütün mərhələlərində də genderə həssas büdcə yanaşmasının elementləri öz əksini tapa bilər (Əlavə 2). Buraya gender amilinə həssas büdcə göstəriciləri, gender amilinə həssas büdcə bəyanatı, dövlət investisiya layihələrində benefisiarların gender analizi kimi fərqli alətlərin tətbiqi aid edilə bilər. Büdcə təşkilatlarının ortamüddətli dövr üçün proqram üzrə fəaliyyət planının hazırlanmasına dair təlimatlarda nazirlik və komitələrdən strateji hədəfə və performans hədəfinə nə qədər çatdığını ölçməyə imkan verən genderə həssas indikatorlar hazırlayıb tələb etməyi öhdəlik kimi təsbit edə bilər[35]. Növbəti il üçün məqsədli proqram və tədbirlərin icrasından gözlənilən birbaşa nəticələri ehtiva edən performans hədəfləri içərisində büdcə təşkilatları gender bərabərliyinə töhfə verən hədəflər təsbit edə bilərlər. Müəyyən edilmiş məqsədə nail olmaq üçün təşkilatın ortamüddətli dövr üçün qarşıya qoyduğu ölçülə bilən və konkret alt məqsədlərindən ibarət olan strateji hədəflər arasında da genderə həssas hədəflər qoyula bilər. Büdcə təşkilatlarının strateji hədəfləri, məqsədli proqramları və tədbirlərin icrasının performans hədəfi üçün aşağıdakı kateqoriyalarda gender amilinə həssas büdcə indikatorları istifadə oluna bilər:



[35] Büdcə təşkilatlarının ortamüddətli dövr üçün proqram üzrə fəaliyyət planının hazırlanmasına dair təlimat. 2020. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5e4b94a192d96.pdf

## Cədvəl 7. Gender amilinə həssas büdcə indikatorlarına örnəklər

| İndikatorun kateqoriyası | Qısa izahatı | Gender nümunəsi |
|---|---|---|
| İlkin resurs indikatorları | Bir məqsədli proqram və tədbirin həyata keçirilməsi üçün lazım olan maliyyə və fiziki resursların miqdarı | Dərs keçən müəllimlərin sayı və cinsi bölgüsü |
| Birbaşa nəticə indikatorları | Məqsədli proqram və tədbir vasitəsi ilə göstəriləcək mal və xidmətin həcmi | Təhsil alan şagirdlərin sayı və cinsi bölgüsü |
| Son nəticə indikatorları | Proqram və tədbirin həyata keçməsi nəticəsində cəmiyyət və insanların rifahına təsirini ölçür | Kişilərin və qadınların orta ömür müddətinin artması; qızların və oğlanların tələbə qəbulunda topladığı orta bal |
| Məhsuldarlıq indikatorları | Birbaşa nəticə göstəricisinin (A) sərf edilən resurs göstəricisinə (B) nisbəti (A/B) | Qız və ya oğlan bir tələbənin təhsilinə sərf edilən maliyyə vəsaiti |
| Keyfiyyət indikatorları | Dövlət xidmətlərinin həmin mal və xidmətlərdən yararlananların ehtiyac və istəklərini qarşılama səviyyəsi və istifadəçi məmnuniyyəti, standartlara uyğunluq və xətasız olma dərəcəsi | Qız və oğlan tələbələrin təhsildən qane olma faizi |

Büdcə təşkilatlarının ortamüddətli dövr üçün baza proqnozlarının və yeni siyasət təşəbbüsləri üzrə sifarişlərinin hazırlanmasına dair təlimata uyğun olaraq dövlət qurumları "yeni siyasət təşəbbüsü" irəli sürərkən gender bərabərliyinə töhfə verən təşəbbüsləri də nəzərdən keçirə bilərlər . Beləliklə, Azərbaycan dövlət maliyyə idarəetmə sistemində növbəti il və sonrakı 3 ilə dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi təklif olunan yeni layihələr, dövlət proqramları və tədbirlərindən irəli gələn cari və əsaslı xərclərdə gender amili tətbiq edilmiş olar.

# Azərbaycanın büdcə prosesi və gender faktoru

Dövlət və icmal büdcələrin layihəsinin tərtibi özündə müəyyən mərhələləri birləşdirir və bir sıra normativ-hüquqi sənədlərlə tənzimlənir. Azərbaycanda büdcə prosesi Konstitusiya, "Büdcə sistemi haqqında" Qanun, Vergi Məcəlləsi, "Dövlət büdcəsinin tərtibi və icrası qaydaları", "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası" və digər normativ-hüquqi aktlar vasitəsi ilə tənzimlənir. Bu normativ-hüquqi aktlar toplusu büdcə prosesinin əsas prinsiplərini, dövlət və icmal büdcələrin tərtibi və icrası prosesində mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcənin tərtibi prosesində iştirak edən orqanlar, büdcədənkənar dövlət fondları, digər təşkilatlar arasında qarşılıqlı münasibətlərin əsas istiqamətlərini özündə birləşdirir.

[36] Büdcə təşkilatlarının ortamüddətli dövr üçün baza proqnozlarının və yeni siyasət təşəbbüsləri üzrə sifarişlərinin hazırlanmasına dair Təlimat. 2020. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5e4b94a1a2730.pdf

### Cədvəl 8. Büdcə prosesi və gender faktoru

| **Büdcə prosesinin mərhələləri** | **Məsul dövlət qurumları** | **Gender faktorunun inteqrasiyası** |
|---|---|---|
| Büdcə layihəsinin tərtibi | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları | Dövlət və icmal büdcənin layihəsinin və fiskal proqnozların hazırlanması prosesində gender indikatorları tətbiq edilə bilər. |
| Büdcə layihəsinin təsdiqi | Milli Məclis və Prezident | Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi; Ailə, qadın və uşaq məsələləri komitəsi; Əmək və sosial siyasət komitəsi və digər komitələrdə və plenar iclasda müzakirəsi zamanı gender istiqamətini gündəmə gətirmək. |
| Büdcənin icrası | Maliyyə Nazirliyi Dövlət Xəzinədarlığı Agentliyi | Büdcənin xəzinə icrası zamanı gender bərabərliyini birbaşa və dolayı təmin edən xərcləmələr ilə bağlı məlumatların toplanması və çeşitləndirilməsi. |
| Büdcənin icrasına dair hesabatlılıq | Maliyyə Nazirliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları | Maliyyə Nazirliyinin büdcənin icrasına dair rüblük və illik hesabatlarda gəlirlərin və xərclərin icrasının gender təsirləri ilə bağlı məlumatların əlavə edilməsi. |
| Büdcənin icrasına nəzarət (cari və kənar) | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Hesablama Palatası | Maliyyə Nazirliyi tərəfindən həyata keçirilən büdcənin icrasına cari nəzarət və Hesablama Palatası tərəfindən həyata keçirilən büdcənin icrasına kənar nəzarət zamanı gender təsirlərinin auditinin aparılması və nəticələrinin dərci. |

İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını dəqiqləşdirir və bu proqnozların əsasında Maliyyə Nazirliyi növbəti il və sonrakı üç il üçün dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozunu tərtib edir. Maliyyə Nazirliyi tərəfindən növbəti il üzrə dövlət büdcəsinin layihəsi və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubu hazırlanır və büdcənin tərtibi prosesində iştirak edən təşkilatlara göndərilir. Bütün bu mərhələlərdə gender yanaşması və müvafiq gender indikatorları Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi tərəfindən tətbiq edilə bilər. Nazirlər Kabineti öz növbəsində növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri və "Büdcə sistemi haqqında" Qanun (2002) ilə müəyyən edilən digər sənədləri Prezidentə təqdim edir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi, "büdcə zərfi"nə daxil olan digər sənədlər Milli Məclisdə qanunla təsdiq olunur. "Büdcə zərfi" Azərbaycan Prezidenti tərəfindən Azərbaycan Milli Məclisinə təqdim olunan 24 büdcə sənədindən ibarət bir topludur ki, bu sənədlərin böyük əksəriyyətinə gender istiqaməti əlavə edilə bilər. Maliyyə Nazirliyi tərəfindən növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edilir. Nazirlər Kabineti, Milli Məclis və Hesablama Palatası gender amilinə həssas büdcənin tətbiqi və büdcə prosesinin idarə edilməsi üçün müvafiq olaraq icraedici, qanunverici və kənar maliyyə auditi səlahiyyəti olan qurumlardır.

# Gender büdcələşməsinin institusional aspekti: büdcə sistemini idarə edən təşkilatlar

Beynəlxalq təşkilatların hesabatları və tədqiqatları göstərir ki, büdcə vəsaitlərinin xərclənməsini təşkil edən nazirlik (Maliyyə Nazirliyi) gender büdcələşməsi ilə bağlı əsas məsuliyyəti öz üzərinə götürəndə gender büdcələşməsi təşəbbüsləri daha effektiv olur. Maliyyə Nazirliyi gender yönümlü hədəflərin müəyyənləşməsində, dövlət proqramlarının hazırlanmasında və hədəflərə çatması üçün büdcə vəsaitlərinin ayrılmasında mərkəzi rol oynayır. Avstriya və Belçika nümunələrində digər dövlət qurumlarının aktiv iştirakı ilə yanaşı Maliyyə Nazirliyi ön plana çıxır. Meksikada gender büdcəsi təşəbbüslərinə Səhiyyə Nazirliyi, Timor-Lestedə isə Təhsil Nazirliyi rəhbərlik edir. Uqanda hökuməti təhsil, səhiyyə, su, kanalizasiya, infrastruktur, ədliyyə və kənd təsərrüfatı daxil olmaqla bir sıra prioritet sahələri müəyyənləşdirir və bu sahəvi nazirliklərdən qadınların ödənilməmiş ehtiyaclarına cavab verən proqramlar hazırlamalarını tələb edir.

Büdcə sistemini idarə edən qurumlar dövlət xərcləri və vergilərinin təyin olunmasında mühüm rol oynayırlar. İqtisadi islahatlar dərinləşdikcə bunlar hesabatlılığı və şəffaflığı daha çox artırmaqla büdcə proseslərinin islahatlarını da əhatə edir. Burada vacib bir məsələ digər nazirliklərlə müqayisədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə ayrılan ümumi büdcənin payının və hər nazirlik daxilində qurulmalı olan gender bərabərliyi tədbirlərinin əlaqələndirmə mərkəzləri (focal points) tərəfindən idarə olu-

nan büdcə payının təhlilidir. Gender bərabərliyini əsaslandırmaq üçün məsuliyyət daşıyan quruma (Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) bu məqsəd üçün kifayət qədər büdcə ayırılmazsa gender məsələsi digər qurumlar üçün də prioritetə çevrilə bilməz.

Azərbaycanda büdcə sistemini birbaşa idarə edən dövlət qurumları Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Nazirlər Kabineti, Dövlət Neft Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Sosial Müdafiə Fondu və digər mərkəzi icra hakimiyyəti orqanlarıdır. Büdcəyə nəzarət baxımından Milli Məclis və ona hesabat verən Hesablama Palatasının rolu önəmlidir. Gender bərabərliyi məsələsində maraqlı olan əsas dövlət qurumu isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Gender amilinə həssas büdcənin tətbiqi bütün bu qurumların əməkdaşlığını tələb edir ki, bunun üçün də siyasi dəstəyə ehtiyac duyulur. Ümumiyyətlə, bir çox hallarda dövlət məmurları gender sahəsində bilik və təcrübəyə sahib olmaya bilərlər. Bu fakt əlavə olaraq gender amilinə həssas büdcə sahəsində təhsil proqramlarının reallaşmasını tələb edir. Yuxarıda sadalanan qurumlar arasında effektiv proqram koordinasiyasına da ehtiyac duyulur. Dövlət büdcəsinə gender analizinin tətbiqi vaxt tələb edir və bu səbəbdən də bu məsələdə davamlılıq və iştirakçılıq məsələsi vacibdir.

# Vətəndaş cəmiyyəti və yerli qurumlar ilə əməkdaşlıq

Gender büdcələşməsində maraqlı olan əsas iştirakçı tərəflər hökumət, parlament, ekspertlər, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətini təmsil edən qeyri-hökumət təşkilatlarıdır. Dövlət və vətəndaş cəmiyyəti əməkdaşlığının genderə həssas büdcənin tətbiqində önəmini vurğulamaq lazımdır. İctimai iştirakçılıq genderə həssas büdcənin hazırlanması prosesinin bütün fərqli mərhələlərində (formalaşma, müzakirə, büdcənin icrası, nəzarət) baş verir. Büdcə prosesində ictimai iştirakçılıq qanunverici orqan və ali audit qurumu ilə yanaşı mərkəzi hökumətin bütün səlahiyyətli qurumları ilə dialoq çərçivəsində baş verəndə effektiv olur. Büdcə prosesində iştirakçılığın və ictimai məsləhətləşmələrin məqsədi, miqyası və mexanizmi ilə bağlı hökumət əvvəlcədən cəmiyyətə kifayət qədər informasiya təqdim edir. Büdcə prosesinin mərhələlərinə və ictimai qrupların xüsusiyyətinə müvafiq olaraq ictimai iştirakçılığın fərqli mexanizmləri tətbiq edilir. Hökumət ictimaiyyəti onların iştirakçılıq prosesindəki gender büdcələşməsi ilə bağlı təkliflərinin sonrakı aqibəti barədə məlumatlandırır və bununla bağlı ayrıca hesabat yayımlayır.

Gender amilinə həssas büdcənin mərkəzi hökumət büdcəsi səviyyəsində tətbiqi vacibdir. Çünki həm gəlir, həm də xərcləmələrə dair büdcə qərarları bu səviyyədə qəbul edilir. Amma regional və yerli idarəetmə səviyyələrində gender amilinə həssas büdcə məsələsi də önəmlidir. Regional və yerli rəhbərliklərin insanların gündəlik həyatlarına yaxın olması, dövlət siyasətində və xidmət göstərilməsində qadın və kişilərin ehtiyaclarına daha çox birbaşa

cavab vermə potensialının olması deməkdir. Bu səviyyələrdə yerli əhalinin cəlb olunduğu iştirakçılıq əsaslı tətbiq olunan gender amilinə həssas büdcə yanaşmalarından istifadə etmək üçün böyük potensial mövcuddur. Azərbaycanda bələdiyyə institutu zəif inkişaf etsə də, şəhər və rayon büdcələrini idarə edən yerli icra hakimiyyətləri bu prosesə cəlb oluna bilər. Bunun üçün də "Büdcə sistemi haqqında" Qanun ilə yanaşı, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də də müvafiq dəyişikliklər edilə bilər. Azərbaycanda mərkəzi və yerli səviyyədə büdcə prosesinə və büdcə sənədlərinə gender amilinin daxil edilməsi üçün hüquqi baza gücləndirilə bilər.

# Tövsiyələr

Azərbaycanda gender bərabərliyini təşviq etmək və gender büdcələşməsi qərarlarının dövlətin qərar qəbuletmə və dövlət siyasətinin hazırlanması mexanizmlərinə daxil edilməsini təmin etmək üçün büdcə sistemi və büdcə prosesində müəyyən dəyişikliklər etmək zəruridir. Eyni zamanda, gender büdcələşməsi təcrübəsini uğurla həyata keçirmək üçün Azərbaycan büdcə sisteminin mövcud təcrübələri ilə ziddiyyət təşkil etməyən bir yanaşma tətbiq etməlidir. Büdcə qərarlarının qəbul edilməsində gender tarazlığını təmin edən gender idarəetmə sistemi ilə büdcə və ya dövlət maliyyəsi idarəetmə sistemi arasındakı institusional əlaqə düzgün qurulmalıdır.

Büdcə layihəsi sənədləri gender faktorunu nəzərə almaq üçün gender bərabərliyi prioritetlərini, bu bərabərliyi reallaşdırmaq üçün konkret büdcə xərclərini və bu xərclərin gender təsirlərinin qiymətləndirilməsini əhatə etməlidir. Maliyyə Nazirliyi və ya Nazirlər Kabineti bu məqsədlə gender büdcələşməsi bəyanatı hazırlaya bilərlər. Genderə həssas büdcə bəyannamələrinin hazırlanmasının başlanğıcında Maliyyə Nazirliyi (İqtisadiyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaxın-

dan iştirakı ilə) bütün digər nazirliklərə "genderə həssas büdcə təlimatları" göndərməlidir. Bu təlimatlara əsasən, icrası hədəflənmiş büdcə xərclərinə cavabdeh olan hər bir büdcə təşkilatı bunun üçün genderə həssas büdcə təklifi yazmalıdır. Büdcə təklifi hədəflənən əhali qrupunu təsvir etməli, son üç il ərzində benefisiarlar haqqında cinslərə görə ayrılmış məlumatların ilkin təhlilini aparmalı və gender bərabərliyi üzrə performans göstəriciləri ilə əlaqəli fəaliyyət hədəflərini təyin etməlidir.

Hökumət büdcənin qadın və kişilərə təsirini təhlil edən ən azı illik gender büdcələşməsi hesabatı hazırlamalıdır. Hesabatda gender bərabərliyinə dövlət büdcəsinin gözlənilən təsirləri, performans hədəfləri və gender amilinə görə gözlənilən faydaların təhlili barədə məlumat daxil edilməlidir. Maliyyə ili bitdikdən sonra hər bir büdcə təşkilatı maliyyə ili üçün cinslərə görə ayrılmış məlumatların ilkin təhlilini özündə cəmləşdirən, performans hədəfləri və göstəricilərinin uğurlu və ya uğursuz olmasına toxunan və hər hansı bir uğursuzluğun səbəbini müəyyənləşdirən gender büdcəsi üzrə icra hesabatı tərtib etməlidir. Hər bir nazirlik və ya komitə bu sənədləri tərtib etməli, genderə həssas büdcə bəyannaməsi və genderə həssas xərc hesabatlarının formalaşdırılması üçün Maliyyə Nazirliyinə təqdim etməlidir. Azərbaycanın vahid büdcə təsnifatına əsasən büdcə gəlirləri vergilərdən daxilolmalar, sosial ayırmalar, qrantlar və digər gəlirlər bölmələrindən ibarətdir ki, bunların da ayrı cins qruplarına təsiri qiymətləndirilə bilər. Azərbaycanda dövlət təşkilatları tərəfindən mərkəzləşmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına tenderlə satınalmalar həyata keçirilərkən müraciətçilərin cinslər üzrə bölgüsü barədə məlumatların açıqlanması ilk addım kimi həyata keçirilə bilər.

Dövlət maliyyəsi üzrə qanunvericilik, hökumətdən büdcənin qadın və kişilərə gözlənilən təsirini təhlil edən gender büdcələşməsi hesabatları hazırlamaqla yanaşı, genderə həssas maliyyə xərclərini və konkret xərcləmələ-

rin qadınlara və kişilərə eyni dərəcədə fayda verdiyini açıqlayan hüquqi müddəalar ehtiva etməlidir. “Büdcə sistemi haqqında” Qanun və “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Nazirlər Kabinetinin (2018) Qərarına da dəyişiklik edilərək gender amili ilə bağlı tələblər, təsnifat maddələri və müddəalar əlavə oluna bilər. Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyinin ortamüddətli proqnozlarında və ortamüddətli xərclər çərçivəsinin hazırlanması üzrə təlimatlarda gəlir və xərclər üzrə gender indikatorları və müvafiq izahatlar əks oluna bilər. Büdcə qanunvericiliyi ilə təsbit edilən büdcəyə kənar nəzarət mexanizminin və ya dövlət büdcəsinin auditinin əsas məqsədlərindən biri məhz gender bərabərliyi olmalıdır. Gender bərabərliyi kənar audit daxilində bir təhqiqat istiqamətinə çevirilə bilər və bu kənar auditin əhatə dairəsi gender bərabərliyindən daha geniş olmalıdır. Büdcə prosesində vətəndaş iştirakçılığı hüquqi əsaslara malik olmalıdır və belə hüquqi çərçivə heç bir fərdə və ya qrupa qarşı (əhalinin cinsi bölgü qrupları daxil olmaqla) ayrı-seçkilik nəzərdə tutmamalıdır.

## Əlavə 1. Gender büdcələşməsinin tətbiqi üçün praktik fəaliyyətlər

Gender büdcələşməsi, cinsi bölgünün və gender ehtiyaclarının büdcə qərarlarında əks olunması üçün büdcə prosesinin bütün mərhələlərində gender təsirini nəzərə almağı özündə birləşdirir. Gender büdcələşməsinin tətbiqi üçün aşağıdakı məsələlərə baxılmalıdır[37]:

1. Qadınlar və kişilər arasındakı bərabərsizliyi necə artırdıqlarını və ya azaltdıqlarını təhlil etmək üçün fərqli nazirliklərin və dövlət qurumlarının siyasətlərinin analizi.

2. Dövlət xidmətlərindən istifadə edən şəxslərdən bu xidmətlərin onların gender baxımından ehtiyaclarına və prioritetlərinə uyğun olub-olmadığını soruşub öyrənmək (sorğular).

[37] Stephenson, Mary-Ann. A Guide to Gender-Responsive Budgeting. Oxfam. 2018 https://policy-practice.oxfam.org.uk/publications/a-guide-to-gender-responsive-budgeting-620429

3. Hökumətin bir dövlət proqramına nə qədər vəsait xərclədiyi ilə bu vəsaitin kişilər və qadınlar arasında necə bölüşdürüldüyü ilə bağlı ev təsərrüfatları sorğularından əldə edinən məlumatlarla müqayisəsi.

4. Büdcənin vergi gəlirlərinin toplanmasına hansı qrupların (cinsiyyətə görə) töhfə verdiyinə, eləcə də ümumi vergi sisteminin nə qədər reqressiv olduğuna baxmaq.

5. Əgər müvafiq məlumatlar əlçatan olarsa kişilər və qadınlar və digərləri tərəfindən nə qədər vergi ödəndiyinin araşdırılması ("cinslər üzrə bölünmüş vergi hallarının təhlili").

6. Vergi sistemindəki dəyişikliklərin cinsi meyarlar üzrə fərqləndirilmiş qrupların rollarını gücləndirməyə və ya dəyişdirməyə təsirləri də daxil olmaqla, bütün vergi sistemini analiz etmək.

7. Vergi sisteminin ümumi quruluşunu analiz etmək (çox vaxt gəlir vergisi kimi birbaşa vergilər əsasən kişilər tərəfindən ödənilir)[38].

8. Vergilərdən yayınma (şirkətlər və varlı şəxslər tərəfindən) və dövlətin sosial siyasətə investisiya yatırma qabiliyyətini zəifldən vergi itkilərini və ya yayınmalarını analiz etmək.

9. Dövlətin iqtisadi planlaşdırma sənədlərinə və əsas götürdükləri inkişaf modellərinə gender təhlilini daxil etməsinə və büdcə bəyannaməsinin genderə həssas olmasına nəzər yetirmək .

10. Büdcənin gəlir və xərclər üzrə kişilər və qadınlar tərəfindən vaxt sərfiyyatı (ödənişsiz işlər üzrə) göstəricilərini nəzərə alıb-almadığına baxmaq.

[38] Gəlirlərin toplanması daha az birbaşa gəlir vergisindən və daha çox istehlak və satış vergilərindən asılı olduqda, ailə büdcəsindən məsul olan qadınlar üçün əhəmiyyətli dərəcədə neqativ təsir göstərə bilər.

## Əlavə 2. Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədinin hazırlanması təqvimi və genderə həssas büdcə yanaşmasının inteqrasiya imkanları

| Təqdim edən | Qəbul edən | Tarix | Açıqlama |
|---|---|---|---|
| Maliyyə Nazirliyi | İqtisa-diyyat Nazirliyi | Fevral ayının 5-dək | - dövlət büdcəsinin əsas icra göstəriciləri (gender indikatorları ilə birgə) |
| | | | - növbəti il və sonrakı 3 il üçün ilkin proqnoz göstəriciləri, gəlirlər, o cümlədən neft və qeyri- neft gəlirləri (proqnoz göstəriciləri cinslərə təsiri və ya bölgünü əks etdirə bilər) |
| | | | - Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi |
| | | | - xərclər, o cümlədən cari, əsaslı və dövlət borcuna xidmətlə bağlı xərclər (xərclərin benefisiarlarının cinsi bölgüsü əlavə edilə bilər) |
| Döv-lət Neft Fondu | İqtisa-diyyat Nazirliyi | Fevral ayının 5-dək | Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilən layihələrin maliyyələşdirilməsi üçün sifarişçi təşkilatların vəsait ehtiyacı barədə proqnoz məlumatı (Fondun vəsaiti ilə maliyyələşəcək layihələrdə benefisiarların gender analizinin həlli) |

| Təqdim edən | Qəbul edən | Tarix | Açıqlama |
|---|---|---|---|
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondu | İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | cari il gözlənilən, növbəti il və sonrakı üç il üçün gəlir və xərcləri, orta aylıq əməkhaqqı, yaşayış minimumu, minimum əməkhaqqı, ehtiyac meyarı, məşğulluq, sosial və demoqrafik göstəricilər barədə məlumatlar (bütün göstəricilərin cinsi bölgü əsasında təqdimatı |
| Dövlət Statistika Komitəsi | İqtisadiyyat Nazirliyi | Fevral ayının 5-dək | İqtisadiyyat Nazirliyinin təqdim etdiyi formaya uyğun olaraq əvvəlki il üçün ilkin statistik məlumatlar (bütün statistik göstəricilərin cinsi bölgü əsasında təqdimatı) |
| Maliyyə Nazirliyi | Büdcənin tərtibində iştirak edən təşkilatlar | Feval ayının 15-dək | ortamüddətli xərclər çərçivəsinin hazırlanması üzrə təsdiq olunmuş təfsilatlı təlimatlar (OMXÇ təlimatlarında büdcə təşkilatlarından cinslər üzrə çeşidləndirilmiş məlumatlar tələb edilə bilər) |

| Təqdim edən | Qəbul edən | Tarix | Açıqlama |
|---|---|---|---|
| Büdcənin tərtibində iştirak edən təşkilatlar | Maliyyə Nazirliyi | Mart ayının 1- dək | Maliyyə Nazirliyi tərəfindən təsdiq olunmuş "Büdcə təşkilatlarının ortamüddətli dövr üçün baza proqnozlarının və yeni siyasət təşəbbüslərinin hazırlanmasına dair Təlimat" və "Büdcə təşkilatlarının ortamüddətli dövr üçün proqram (tədbir) üzrə fəaliyyət planının hazırlanmasına dair Təlimat"a uyğun olaraq hazırlanmış kreditlər, qrantlar və ya digər maliyyələşmə formalarından asılı olmayaraq, növbəti il və sonrakı üç il üçün bütün mövcud və davam etməkdə olan layihələr üzrə baza proqnozları və yeni siyasət təşəbbüsləri (YST) ilə bağlı sifarişləri, eləcə də proqram (tədbir) üzrə fəaliyyət planları (hər bir büdcə təşkilatı gender bərabərliyinə töhfə verən ən azı bir yeni siyasət təşəbbüsü və cinslər üzrə ayrılmış baza proqnozu təqdim edə bilər) |
| Büdcənin tərtibində iştirak edən təşkilatlar | İqtisadiyyat Nazirliyi | Mart ayının 1- | davam edən layihələrin əsaslı xərclərinə dair məlumatlar, yüksək prioritetli yeni investisiya təklifləri (təklif edilən investisiya layihələrində benefisiarların gender analizi və gender göstəriciləri öz əksini tapa bilər) |

| **Təqdim edən** | **Qəbul edən** | **Tarix** | **Açıqlama** |
|---|---|---|---|
| Maliyyə Nazirliyi | İqtisadiyyat Nazirliyi | Aprel ayının 1- dək | ortamüddətli dövr üçün icmal büdcə və dövlət büdcəsi ilə əlaqədar məlumatlar (dövlət büdcəsinin ortamüddətli prioritetlərində gender bərabərliyi amilinin əks olunması) |
| İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi | May ayının 1- dək | ortamüddətli sosial-iqtisadi proqnoz göstəriciləri  və dövlət investisiya proqramının istiqamətləri (sosial-iqtisadi göstəricilər cinslər üzrə çeşidləndirilmiş formatda ola bilər və dövlət investisiya proqramı üzrə layihələrdə də benefisiarların gender analizi verilə bilər) |
| Maliyyə Nazirliyi | Nazirlər Kabineti | Sentyabr ayının 15-dək | OMXÇ sənədinin layihəsi (OMXÇ sənədinin girişində qısa şəkildə gender amilinə həssas büdcə bəyanatının yer alması) |
| | Maliyyə Sabitliyi Şurası | | |
| Nazirlər Kabineti | Prezident | Sentyabr ayının 25-dək | OMXÇ sənədinin layihəsi (OMXÇ sənədinin girişində qısa şəkildə gender amilinə həssas büdcə bəyanatının yer alması) |

OMXÇ təqvimi üçün mənbə: Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədinin hazırlanması təqvimi. 2020.

http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5e4b95857615e.pdf

# İstinad edilmiş mənbələr:

İnqilab Əhmədov, Azər Mehtiyev, Murad Bağırzadə, Kənan Aslanlı. "Azərbaycanda gender büdcəsinin tətbiqi üçün iqtisadi, siyasi, sosial və institusional bazanın təhlili". PFMC. 2008 http://www.budget.az/upload/files/Gender_budget_-_final_versiont_-_az.pdf

Kənan Aslanlı. Açıq Büdcə İndeksi: Beynəlxalq büdcə təcrübəsi və Azərbaycan. Azad İqtisadiyyata Yardım İctimai Birliyi. 2014 http://freeeconomy.az/site/assets/files/1348/achiq_budce_indeksi_ve_azerbaycan.pdf

Katrin Şnayder, Kənan Aslanlı. Azərbaycan: dövlət maliyyə idarəetməsi sistemində gender amillərinin nəzərə alınmasına dair icmal. Asiya İnkişaf Bankı. 2020. https://www.adb.org/sites/default/files/project-documents/51355/51355-001-tacr-az_0.pdf

Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) sənədinin hazırlanması təqvimi. 2020. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5e4b95857615e.pdf

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası. İstanbul. 11.05.2011. https://rm.coe.int/ic-explanatory-ic-aze-web/16808e9a39

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanunu. 10.10.2006. http://www.e-qanun.az/framework/12424

Гендерные аспекты бюджетирования на местном уровне. Исследование. Киев. 2012. http://library.fes.de/pdf-files/bueros/ukraine/09513.pdf

Ministry of Finance and Economic Affairs of Iceland. Gender budgeting. 2020. https://www.government.is/topics/economic-affairs-and-public-finances/gender-budgeting/

OECD Gender Budgeting Framework. 2020. https://www.oecd.org/gov/budgeting/Gender-Budgeting-Highlights.pdf

OECD. Gender Budget Toolkit. https://www.oecd.org/gender/governance/toolkit/government/integration-in-budget-cycle/ex-ante-gender-budgeting/

PEFA. Examples of Integrating Gender Considerations in Public Financial Management. Case study of Korea. 2020. https://www.pefa.org/sites/pefa/files/resources/downloads/200402 PEFA GRPFM-5 Case Study_Repulic of Korea.pdf

The Public Expenditure and Financial Accountability (PEFA) supplementary framework for assessing gender responsive public financial management (GRPFM). 2020. https://www.pefa.org/sites/pefa/files/resources/downloads/WBG_PEFA_GRPFMB_BROCHURE_TRIFOLD_2_6_WEB.pdf

IMF. Gender Budgeting in G7 Countries. 2017. https://www.imf.org/en/Publications/Policy-Papers/Issues/2017/05/12/pp041917gender-budgeting-in-g7-countries

Debbie Budlender, Diane Elson, Guy Hewitt, Tanni Mukhopadhyay. Gender Budgets Make Cents. Understanding gender responsive budgets. The Commonwealth Secretariat. 2002. https://www.internationalbudget.org/wp-content/uploads/Gender-Budgets-Make-Cents-Understanding-Gender-Responsive-Budgets.pdf

Diane Elson. Budgeting for Women's Rights: Monitoring Government Budgets for Compliance with CEDAW. UNIFEM. 2006.

https://www.internationalbudget.org/wp-content/uploads/Budgeting-for-Women%E2%80%99s-Rights-Monitoring-Government-Budgets-for-Compliance-with-CEDAW.pdf

Sharp, R., Broomhill, R. (1990). Women and Government Budgets. Australian Journal of Social Issues, Vol. 25, No.1. https://onlinelibrary.wiley.com/doi/abs/10.1002/j.1839-4655.1990.tb00872.x

Open Budget Survey. IBP. 2020. https://www.internationalbudget.org/sites/default/files/country-surveys-pdfs/2019/open-budget-survey-azerbaijan-2019-en.pdf

Stephenson, Mary-Ann. A Guide to Gender-Responsive Budgeting. Oxfam. 2018 https://policy-practice.oxfam.org.uk/publications/a-guide-to-gender-responsive-budgeting-620429

Gender budgeting. European Institute for Gender Equality. 2020

https://eige.europa.eu/gender-mainstreaming/methods-tools/gender-budgeting

Gender-responsive planning and budgeting. UN Women Europe and Central Asia. https://eca.unwomen.org/en/where-we-are/turkey/national-planning-and-budgeting

Gender Responsive Budgeting in Practice: A Training Manual. United Nations Development Fund for Women (UNIFEM). 2006. https://www.unfpa.org/sites/default/files/pub-pdf/gender_manual_eng.pdf

K. Schneider. Manual for Training on Gender Responsive Budgeting. GTZ. 2006. https://www.ndi.org/sites/default/files/Manual%20for%20Training%20on%20Gender%20Responsive%20Budgeting.pdf

Convention on the Elimination of All Forms of Discrimination against Women (New York, 18.12.1979). https://www.ohchr.org/en/professionalinterest/pages/cedaw.aspx

Council of Europe. Final report of the Group of specialists on gender budgeting (EG-S-GB). Directorate General of Human Rights. Strasbourg. 2005. https://rm.coe.int/1680596143

Ronnie Downes, Lisa von Trapp, Scherie Nicol. Gender budgeting in OECD countries. 2017. https://www.oecd.org/gender/Gender-Budgeting-in-OECD-countries.pdf

Janet G. Stotsky. Gender Budgeting: Fiscal Context and Current Outcomes. IMF Working Paper. 2016. https://www.imf.org/external/pubs/ft/wp/2016/wp16149.pdf

Women, Girls, Boys and Men: Different Needs – Equal Opportunities. Gender Handbook for Humanitarian Action. IASC Sub-Working Group on Gender and Humanitarian Action. 2006. https://interagencystandingcommittee.org/system/files/legacy_files/women_girls_boys_men_different_needs_equal_opportunities_iasc_gender_handbook_for_humanitarian_action_english_language_.pdf

# Qeydlər

# Qeydlər

Bakı 2021